*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

26 iyul 2025-ci il №27 (9133) www.muallim.edu.az muallim@media.edu.az


## Beynəlxalq ikili diplom proqramlarının sayı 8-ə çatdırılacaq



## Ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün məbləği artırılıb



## Doktorantlar, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrin təqaüdləri artırılıb



## Dövlət başçısı media nümayəndələrini mükafatlandırıb




Bax səh. 2

# Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir

Əbu-Dabidə müzakirə etdiyimiz mövzulardan biri tərəflər arasında etimadın aşağı səviyyədə olması idi ki, bu da tamamilə anlaşılandır. Bizə gəldikdə, mövqeyimiz heç vaxt dəyişməyib. 2003-cü ildə "Qarabağ bizim torpağımızdır!" dediyim kimi, bu 22 il ərzində də bunu demişəm və deyirəm. Amma ermənilərin mövqeyi dəyişib.

ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Məntiq sadədir. Əgər erməni tərəfi Qarabağ münaqişəsinin bitdiyini hesab edirsə, - Minsk qrupu isə Qarabağ münaqişəsi üçün yaradılmışdı, - demək, onu ləğv etmək lazımdır. Bunun üçün Ermənistan konstitusiyasına dəyişikliklər edilməlidir ki, oradan Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsi çıxarılsın.

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan sədrliyinin ilk ilindən başlayaraq dekolonizasiya, müstəmləkə olan ərazilərin müstəqilliyə və ədalətə qovuşması, eləcə də beynəlxalq təşkilatların qəbul etdiyi qərarların icrası ilə bağlı səyləri dəstəkləmiş və təşviq etmişdir.

Azərbaycan mediasının inkişafı məni çox sevindirir. Çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb və bunu tam səmimiyyətlə deyirəm. Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı olan əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib.

İqlim dəyişmələrinə qarşı mübarizədə Afrika dövlətlərini dəstəkləyirik. Bu, bizim gündəliyimizdə dayanan əsas prioritetlərdən biridir. COP29-un sədri kimi mən bəyan etdim ki, bizim inkişaf edən kiçik ada dövlətləri ilə xüsusi əməkdaşlıq formatımız olacaq, çünki yaranmış təhlükə onlar üçün ekzistensional xarakter daşıyır.

Azərbaycan və Ermənistana son nəticədə razılığa gəlməyə kömək etmək səylərinə görə ABŞ Prezidenti Donald Trampa çox minnətdarıq. Onun beynəlxalq təhlükəsizlik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də özünün diqqət mərkəzində saxlayır. Əlbəttə, onun qələbəsi bir çox səbəbdən Azərbaycanda bizi çox sevindirir.

Bizim ədalətli və qəti Qələbəmiz göstərir ki, ədalət var, sadəcə, ona nail olmaq lazımdır. Onu qazanmaq üçün isə gündəlik çalışmaq və Qələbəni hər gün yaxınlaşdırmaq tələb olunur. Xüsusən əgər son qərar səndən asılıdırsa, həyatını ona həsr etməlisən. Bu, yalnız belə olan halda baş verə bilər. Belə bir konsolidasiya Prezident, Ali Baş Komandan kimi mənə mənəvi güc verdi. Əmin idim ki, cəmiyyət və xalq mənim arxamda duracaq.



## Əmin idim ki, cəmiyyət və xalq mənim arxamda duracaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündən**

## Komandamız Avropa Universitetləri Futzal Çempionatının final mərhələsinə yüksəlib




17-25 iyul tarixlərində Xorvatiyanın Zaqreb şəhərində tələbələr arasında Avropa Universitetləri Futzal Çempionatı keçirilib. Sözügedən oyunlarda ölkəmizi Azərbaycan Tələbə Liqasının 2024/2025 mövsümünün qalibi Azərbaycan İdman Akademiyasının komandası təmsil edib.

Komandamız yarımfinal mərhələsində güclü İspaniya komandasını 5:1 hesabı ilə məğlub edərək final mərhələsinə yüksəlib.

Qeyd edək ki, komandanın Avropa çempionatında iştirakı Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının və Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının, Azərbaycan İdman Akademiyasının dəstəyi ilə həyata keçirilib.

## İki abituriyent 700 bal topladı!



Bu il ali məktəblərə qəbul imtahanlarında 2 nəfər 700 bal toplayıb. "Azərbaycan müəllimi" xəbər verir ki, onlardan biri Şəki rayonu Orta Zəyzid kənd Asim Kamil oğlu adına 1 nömrəli tam orta ümumtəhsil məktəbin məzunu Orxan Fəxri oğlu Abdulsəmədli, digəri isə Bakı şəhəri 272 nömrəli tam orta məktəbin məzunu Sona Məhəmməd qızı Nurməmmədlidir.

Qeyd edək ki, hər iki abituriyent IV ixtisas qrupu üzrə imtahan verib.



# Beynəlxalq ikili diplom proqramlarının sayı 8-ə çatdırılacaq

Prezident İlham Əliyev “Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, ali təhsil sahəsində tətbiq edilən beynəlxalq ikili diplom proqramlarının sayı Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na uyğun olaraq 8-ə çatdırılacaq və onların icrası 2030-cu ilədək təmin ediləcək.

Mövcud və yeni tətbiq ediləcək beynəlxalq ikili diplom proqramlarının maliyyələşdirilməsi Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaiti hesabına təmin ediləcək.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə dörd ay müddətində:

- beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisaslar üzrə təhsil proqramlarının və təhsil səviyyələrinin seçimi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;
- beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;
- beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsi üzrə tədbirlər planını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Elm və Təhsil Nazirliyinə:

- beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisaslar üzrə təhsil proqramlarının və təhsil səviyyələrinin seçimini bu Sərəncama uyğun həyata keçirmək;
- hər növbəti tədris ili üçün beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsinə tələb olunan vəsaitin həcmini Azərbaycan Respublikasının Dövlət Neft Fondu ilə razılaşdırmaqla müəyyən etmək və bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görmək tapşırılıb.

Sərəncamda, həmçinin qeyd olunub ki, beynəlxalq ikili diplom proqramlarının tətbiqinin əsas hədəfləri qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq yeni nəsil mütəxəssislər yetişdirmək, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərini müasirləşdirmək, transmilli təhsil modelinin Azərbaycan Respublikasında tətbiqi yolu ilə uğurlu nəticələr əldə etməkdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq hazırda 6 beynəlxalq ikili diplom proqramı icra olunur.

İnkişaf etmiş təhsil sisteminə malik ölkələrlə ikili diplom proqramlarının dəstəklənməsi, xüsusilə, beynəlxalq reytinqlərdə yüksək mövqe tutan xarici ali təhsil müəssisələri ilə ikili diplom proqramlarının sayının artırılması Azərbaycan Respublikasının vətəndaşı olan istedadlı, yüksək intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri ilə seçilən perspektivli gənclərin beynəlxalq təcrübə əldə etmələrinə imkan və ikili diplom proqramları çərçivəsində birgə elmi fəaliyyətin genişlənməsinə zəmin yaradacaq.

# Ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün məbləği artırılıb

Azərbaycan Respublikası ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması və “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilib. Bununla əlaqədar Prezident İlham Əliyev yeni Fərman imzalayıb.

AZƏRTAC xəbər verir ki, Fərmana əsasən, Azərbaycan Respublikası ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün məbləği 2025-ci il sentyabrın 1-dən 350 (üç yüz əlli) manat müəyyən edilib.

Nazirlər Kabinetinə bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Dövlət başçısı media nümayəndələrini mükafatlandırıb

Prezident İlham Əliyev Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə media nümayəndələrini təltif edib.

Azərbaycanda milli mətbuatın inkişafında xidmətlərinə görə 26 nəfər “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”, bir nəfər 1-ci dərəcəli “Əmək” ordeni, on nəfər 3-cü dərəcəli “Əmək” ordeni, 137 nəfər isə “Tərəqqi” medalı ilə təltif edilib.

Azərbaycanda milli mətbuatın inkişafında xüsusi xidmətlərinə görə 26 nəfər “Əməkdar jurnalist” fəxri adına layiq görülüb.

Bundan başqa, Azərbaycanda milli mətbuatın inkişafı sahəsində xüsusi xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə üç nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib.

# Doktorantlar, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrin təqaüdləri artırılıb

Prezident İlham Əliyev doktorantlar, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması barədə Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, sənədə əsasən, dövlət büdcəsinin vəsaiti hesabına verilən təqaüdlərin məbləği 2025-ci il sentyabrın 1-dən etibarən artırılacaq.

Belə ki, doktorantura səviyyəsində təhsil alanlar üçün elmlər doktoru hazırlığı üzrə təqaüdün məbləği 450 manat (əvvəl 400 manat), fəlsəfə doktoru hazırlığı üzrə isə 300 manat (əvvəl 240 manat) müəyyən edilib.

Ali təhsil müəssisələrinin magistratura səviyyəsində təhsil alan tələbələrdən akademik göstəriciləri 91-100 bal arası olanlara 240 manat, 71-90 bal arası olanlara 180 manat, 51-70 bal arası olanlara isə 120 manat təqaüd veriləcək.

Bakalavriat səviyyəsində (o cümlədən əsas (baza ali) tibb təhsili) təhsil alan tələbələr üçün bu məbləğlər müvafiq olaraq 91-100 bal üçün 200 manat, 71-90 bal üçün 160 manat, 51-70 bal üçün isə 110 manat olacaq.

Orta ixtisas təhsili müəssisələrində oxuyan tələbələrdən 91-100 bal toplayanlara 110 manat, 71-90 bal arası nəticə göstərənlərə 90 manat, 51-70 bal arası olanlara isə 70 manat məbləğində təqaüd ayrılacaq.

Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsində qiyməti “5” (91-100 bal) olan tələbələrə 110 manat, qiymətləri “4” və “5” (71-100 bal) olanlara 90 manat, qiymətləri “3”-“5” (51-100 bal) olanlara isə 70 manat təqaüd ödəniləcək.

Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Nazirliyin əməkdaşlarına dövlət təltifləri təqdim edilib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 iyun 2025-ci il tarixli Sərəncamı ilə Elm və Təhsil Nazirliyinin dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə təltif olunmuş əməkdaşlarına medallar təqdim edilib.

Elm və təhsil naziri Emin Əmrullayev təltif olunmuş əməkdaşları təbrik edib və onlara uğurlar arzulayıb.

Çıxış edən əməkdaşlar onların əməyinə verilən yüksək dəyərə görə minnətdarlıqlarını bildiriblər.

Sonra dövlət təltifləri təqdim olunub.

Qeyd edək ki, nazirliyin Vətəndaşlara xidmət və sənədlərlə iş şöbəsinin müdir müavini Rəcəb Səttarov, Daxili nəzarət sektorunun baş məsləhətçisi Kamil Abdulbağıyev, Elm, ali və peşə təhsili şöbəsinin böyük məsləhətçisi Nüşabə Məmmədbəyova, Məktəbəqədər və ümumi təhsil şöbəsinin böyük məsləhətçisi Məlahət Müştaqova “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif olunublar.

# Elm və təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib







## Emin Əmrullayev Çin Xalq Respublikasının ölkəmizdəki səfiri, Şimali Kipr Türk Respublikasının milli təhsil naziri və Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadze ilə görüşüb

İyulun 23-də elm və təhsil naziri Emin Əmrullayev Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Lu Mei ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında elm və təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

***

İyulun 24-də elm və təhsil naziri Emin Əmrullayev ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Respublikasının milli təhsil naziri Nazım Çavuşoğlu ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

***

İyulun 25-də elm və təhsil naziri Emin Əmrullayev ölkəmizdə səfərdə olan Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadze ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında elm və təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

# Elm və təhsil nazirinin Oğuzdakı vətəndaş qəbulunun vaxtı dəyişdirilib

Elm və təhsil naziri Emin Əmrullayevin 25 iyul 2025-ci il tarixində Oğuz şəhərində keçirilməsi nəzərdə tutulan vətəndaş qəbulunun vaxtı dəyişdirilib. Vətəndaş qəbulu iyulun 29-da keçiriləcək.

Qəbulda Oğuz, Şəki, Qax, Zaqatala, Balakən və Qəbələ sakinlərinin iştirakı nəzərdə tutulub.

Qeyd edək ki, qəbulda yalnız müvafiq qaydada müraciət etmiş şəxslər iştirak edəcəklər.



# Nazir müavini Azərbaycan Üzgüçülük Federasiyasının konfransında iştirak edib









Bakı və regionlardakı universitetlərdə üzgüçülük idman növü ilə bağlı pilot layihələrin həyata keçirilməsi nəzərdə tutulur

İyulun 22-də Azərbaycan Üzgüçülük Federasiyasının (ASF) strategiyası və yenilikləri ilə bağlı konfrans keçirilib.

Federasiyanın prezidenti Zaur Əliyev qurumun strategiyası ilə bağlı ümumi məlumat verib, üzgüçülük idman növündə kütləviliyin artırılması üçün yeni layihələrin həyata keçiriləcəyini bildirib. Zaur Əliyev məktəblilər arasında üzmə bacarıqlarının artırılması məqsədilə layihələr həyata keçirildiyini qeyd edib.

Gənclər və idman naziri Fərid Qayıbov ASF-nin 6 ay ərzində gördüyü işlərdən danışıb, üzgüçülüklə məşğul olanların sayının ötən illərə nisbətən iki dəfə artdığını vurğulayıb. Eyni zamanda bu idman növünün Azərbaycanda inkişaf edəcəyinə inandığını söyləyib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov üzgüçülüyün həyati bacarıq kimi təbliğ edilməsi məqsədilə ASF və Elm və Təhsil Nazirliyinin məktəblər üçün tədris materiallarının hazırlanması və mərhələli şəkildə məktəb proqramına inteqrasiya ediləcəyi barədə danışıb. Nazir müavini Bakı və regionlardakı universitetlərdə üzgüçülük idman növü ilə bağlı pilot layihələrin həyata keçirilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

Firudin Qurbanov həmçinin üzgüçülüyün dünyada ən populyar, insan sağlamlığına müsbət təsir göstərən idman növü olduğundan, kütləviliyi təmin etmək məqsədilə məktəblərdə hovuzların tikilməsinin vacibliyindən bəhs edib.

Federasiyanın baş katibi Oqtay Atayev ASF-nin strateji məqsəd və prioritetlərini təqdim edib.

Strategiya və yeniliklərin təqdimatından sonra ASF-nin yeni məsləhətçisi Pyer Ləfonten ictimaiyyətə təqdim olunub.

# Yeni ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın üçüncü iclası keçirilib

Əsas məqsəd gənclərimizin müasir tələblərə uyğun, keyfiyyətli təhsil alması və əldə etdikləri bilik və bacarıqların əmək bazarının ehtiyaclarına cavab verməsini təmin etməkdir






İyulun 23-də Elm və Təhsil Nazirliyində yeni ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış Komissiyanın üçüncü iclası keçirilib.

Elm və təhsil nazirinin müavini, Komissiyanın sədri İdris İsayevin rəhbərliyi ilə keçirilən iclasda Komissiya üzvləri və nazirliyin rəsmiləri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev ali təhsil proqramlarının hazırlanmasında yeni yanaşmaların tətbiqinin əhəmiyyətindən və bu işdə əmək bazarı və ali təhsil sisteminin nümayəndələrinin birgə iştirakının vacibliyindən söz açıb. Nazir müavini bildirib ki, əsas məqsəd gənclərimizin müasir tələblərə uyğun, keyfiyyətli təhsil alması və əldə etdikləri bilik və bacarıqların əmək bazarının ehtiyaclarına cavab verməsini təmin etməkdir.

Daha sonra təqdimatla çıxış edən Komissiyanın üzvü, nazirliyin Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman Komissiya və işçi qrupların fəaliyyəti, eləcə də bugünkü iclasın gündəliyində duran əsas məsələlər barədə məlumat verib.

Qeyd edilib ki, iclasın gündəliyindəki əsas məsələlərdən biri işçi qruplar tərəfindən təqdim olunmuş və ekspertizadan keçmiş təhsil proqramlarının mərhələli şəkildə təsdiqidir. İclasda, həmçinin ali təhsil müəssisələri üçün ixtisaslar üzrə yeni təhsil proqramları əsasında ixtisaslaşmaya dair nümunəvi təhsil proqramı və tədris planlarının hazırlanması müzakirə olunub.

Komissiya üzvləri bu istiqamətdə görülən işləri müsbət qiymətləndirib, xüsusilə əmək bazarının tələblərinə uyğunlaşdırılmış təlim nəticələrinin önəmini vurğulayıblar.

İclas müzakirə formatında davam etdirilib.

# "Yenilənən məktəblər"

## Füzuli rayonu Aşağı Alxanlı kənd tam orta məktəb

Ötən il yenilənən təhsil müəssisələrindən biri Füzuli rayonu Aşağı Alxanlı kənd tam orta məktəbidir.

"Azərbaycan müəllimi" "Yenilənən məktəblər" rubrikası çərçivəsində bu dəfə sözügedən məktəb barədə məlumatı təqdim edir:

Təhsil ocağı 132 şagird yerlikdir. Tikinti işlərinə 2023-ci ilin dekabrında başlanılıb, 2024-cü il avqust ayında isə işlər başa çatdırılıb.

Məktəbdə 10 sinif, 1 məktəbəhazırlıq, 2 texnologiya otağı, 3 laboratoriya, 1 informatika, 1 hərbi hazırlıq kabineti, kitabxana, 80 yerlik akt zalı, 40 yerlik yeməkxana və 283.2 kv. metr sahəsi olan idman zalı var.












# SABAH qruplarının əhatə dairəsi genişləndirilir

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsildə yeni məzmunlu təhsil proqramlarının əhatə dairəsinin genişləndirilməsi və maliyyələşdirilməsi barədə" müvafiq Sərəncamına əsasən, SABAH proqramının əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulub. Belə ki, artıq sözügedən proqramdan bütün ali təhsil müəssisələri, o cümlədən özəl ali təhsil müəssisələrinin xüsusi istedada malik tələbələri faydalanacaqlar.

Yeni SABAH proqramının ilkin olaraq 10-dan çox ali təhsil müəssisəsini, 50-yə yaxın ixtisas üzrə 3000-ə yaxın tələbəni əhatə etməsi nəzərdə tutulur. Bu siyahıya artıq neçə illərdir SABAH çərçivəsində kadr hazırlığı aparan ənənəvi universitetlərlə yanaşı, ADA Universitetinin, Bakı Ali Neft Məktəbinin və özəl ali təhsil müəssisələrinin də qoşulması gözlənilir.

Digər yenilik isə SABAH proqramının tətbiq edildiyi ixtisas sayının artırılmasıdır. Bildiririk ki, ali təhsil pilləsinin həm bakalavriat, həm də magistratura səviyyələrinin bütün istiqamətləri üzrə bu proqramların açılması və xüsusi istedadlı tələbələrin 2-ci tədris ili ilə yanaşı, 1-ci tədris ilindən də proqramda iştirakının mümkünlüyünün təmin edilməsi nəzərdə tutulub.

Əlavə olaraq qeyd edək ki, proqram çərçivəsində ixtisasların əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulsa da, xüsusilə müasir əmək bazarının tələblərinə və dünyada baş verən yeniliklərə uyğun təbiət, texnoloji və mühəndislik istiqamətlərində ölkəmiz üçün prioritet ixtisaslara say baxımından üstünlük veriləcək.

Növbəti mərhələdə proqrama doktorantların da qoşulması nəzərdə tutulur. Doktorantlar üçün tədrisəsaslı, yeni məzmunlu təhsil proqramlarının tətbiqi planlaşdırılır.

Qeyd edildiyi kimi, proqram ali təhsil müəssisələri və təhsilverənlər üçün də cəlbedici olacaq. Belə ki, proqrama qoşulan ali təhsil müəssisələrinin təhsil infrastrukturunun müasirləşdirilməsi, yeni laboratoriya və avadanlıqların alınması, tədris-metodiki və elmi bazanın gücləndirilməsi üçün maliyyə vəsaitinin ayrılması nəzərdə tutulur. Proqramda iştirak edən akademik heyət fərdi və peşəkar inkişaf məqsədi ilə müxtəlif təlimlərdən, birgə elmi-tədqiqatlardan və beynəlxalq mübadilə proqramlarından yararlana biləcək.

Proqramın icrasına əmək bazarının nümayəndələrinin də cəlb edilməsi nəzərdə tutulub. Belə ki, işəgötürənlərin təşəbbüsü ilə tələbələr müxtəlif təlimlərdə, təcrübə proqramlarında iştirak edə biləcəklər ki, bu da məzunların birbaşa işə cəlb edilməsinə imkan yaradacaq.

# "Maarifçi"lik gənclərə nə qazandırır?

## Nazir müavinindən gənclərə önəmli mesajlar

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov III "Maarifçi" tələbə-məzun təcrübə proqramının iştirakçıları ilə görüşüb. Bakıda innovasiya məkanlarından biri kimi tanınan STEAM Mərkəzində baş tutan görüşdə nazir müavini Elm və Təhsil Nazirliyinin Aparatında və ayrı-ayrı struktur bölmələrində təcrübə keçən məzun və magistrlərlə öz təcrübəsini bölüşüb, çoxsaylı araşdırmaların nəticəsi ilə təsdiqlənən, o cümlədən illərin sınağından çıxan təcrübələrdən danışıb, gənclərə tövsiyələr verib.




Firudin QURBANOV

**"Ölkənin gələcəyinin gənclərdən asılı olduğunu dərk edirsinizsə, öz üzərinizdə daha ciddi işləməyi öyrənməli, vacib həyati bilik, bacarıq və vərdişlərə yiyələnməlisiniz"**

### "Maarifçi" kimdir?

Görüş yeri təsadüfən seçilməyib. Nazir müavini Firudin Qurbanovun gənclərlə söhbətinin ana xəttini məhz Azərbaycanda və dünyada sürətlənən inkişafı ilə həyəcan yaradan texnologiya, sənaye inqilabları və onun nəticələri, prosesin fonunda Azərbaycanın gələcəyinin necə təmin edilməsi məsələləri təşkil edib. Nazir müavini vurğulayıb ki, təcrübədə istifadə olunaraq səmərə gətirən yeniliklər innovasiyadır və bu da yaradıcı insanların fəaliyyəti nəticəsində olur. Odur ki, gənclərin, o cümlədən "Maarifçi"lərin verilən tapşırıqlara yaradıcı yanaşması, baş verəcək gözlənilməz hadisələrə hazır olması, sürətlə dəyişən proseslərə adaptasiyası çox vacibdir.

F.Qurbanov gənclərə "Maarifçi" adının verdiyi məsuliyyət hissinin ağırlığını dərk etmələrini tövsiyə edib: "Maarifçi gənc kimdir? Təbii ki, bütün müəllimlər maarifçi ola bilməz. Ancaq yaxşı müəllimlər maarifçidir.





Amin QULİYEV



Tural ADIGÖZƏLOV



Fatimə HACIYEVA



Mədinə QULİYEVA

Elmin sirrini ötürən alimlər maarifçi ola bilərlər".

Lakin gələcək proseslərə hazır olmaq üçün sadəcə müəllimlərdən öyrənmək kifayət deyil.

F.Qurbanovun fikrincə, yaxın gələcəkdə öz üzərində çalışmaq bacarığı daha vacib istiqamət olacaq: "Bu gün yanınızda olan müəllim sabah olmayacaq. Buna görə də, özünüz öyrənməyi bacarmalısınız".

XXI əsrin bacarıq və səriştələrinin "qabaqcılları" olan öyrənmə və tədqiqata maraq, anlama, biliklərin təcrübədə istifadəsi, tənqidi təfəkkür, ünsiyyət bacarığı, texnologiyaya yiyələnmək və yaradıcı təfəkkür kimi əsas bacarıq və meyilləri göstərmək olar.

Karyera inkişafında vacib məqamlara toxunan nazir müavini gənclərə tövsiyə edib ki, parlaq gələcək üçün düzgün istiqamət götürmək, doğru qərarlar vermək lazımdır: "Özünüzü gördüyünüz vəzifə sahibi ola bilməyiniz üçün idarəetmə, menecment bacarığınız olmalıdır. Məsuliyyət daşımaq çox önəmlidir. Harada olmağınızdan asılı olmayaraq, məsuliyyətinizi itirməyin. Özünüzün, dövlətin qarşısında bu hissi itirməməyiniz vacibdir. Laqeyd olmamağa çalışın. Kiminsə problemi varsa, çalışın dəstək göstərin, təşəbbüskar olun. Sizə tapşırılan işi daha yaxşı etmək üçün başqa nələr etmək mümkün olduğu barədə düşünün".

Həyatın mənasının, ilk növbədə, yüksək dəyərlərə inamdan ibarət olduğunu vurğulayan Firudin Qurbanov həyatı zənginləşdirən amillər sırasına vətənə məhəbbət, ailə dəyərlərinə bağlılıq, valideynlərə, övladlara qayğını əlavə edib: "Ölkənin gələcəyinin gənclərdən asılı olduğunu dərk edirsinizsə, öz üzərinizdə daha ciddi işləməyi öyrənməli, vacib həyati bilik, bacarıq və vərdişlərə yiyələnməlisiniz. Gələcəkdə hansı problemlərlə qarşılacağımızı heç kim bilmir. Siz onları həll etməyə qadir olmalısınız. Bunu ancaq peşəkarlar edə bilər. Kimlərə "peşəkar" demək olar? Peşəkarlar o insanlardır ki, razılaşdırılmamış vəziyyətdə, böhranlı mühitdə düzgün qərar vermək bacarıqları var və onlar istənilən problemi həll edə bilərlər".

Gənclərə sevdiyi işlərlə məşğul olmağı tövsiyə edən F.Qurbanov "Maarifçi" proqramının iştirakçılarının suallarını cavablandırıb, onları idmanla məşğul olmağa, sağlam həyat tərzi keçirməyə, zərərli vərdişlərdən uzaq durmağa, asudə vaxtlarının təşkili barədə düşünməyə çağırıb.

### "Maarifçi" magistrlərin sayı artıb

Görüşdə Firudin Qurbanova məlumat verilib ki, sadəcə məzunlar arasından seçilən 49 nəfərdən ibarət III "Maarifçi tələbə-məzun təcrübə proqramının iştirakçıları arasında magistrlərin sayı çoxalıb.

Onlardan biri – Amin Quliyev Elm və Təhsil Nazirliyinin Satınalmalar və qrantlar sektorunda təcrübə keçir. Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Maliyyə" ixtisası üzrə bakalavr təhsili alıb. "Vergi və vergi tutumu" istiqamətində ixtisaslaşır. Bir dəfə "Maarifçi" tələbə-məzun təcrübə proqramına müraciət edib və bu cəhdi uğursuz olub: "Tələbə yoldaşım mənə link ataraq belə bir proqramın olduğunu dedi. Elm və Təhsil Nazirliyi çalışmaq istədiyim yerlər sırasında olduğundan bu proqrama həvəslə qoşuldum".

Təsadüfən barəsində öyrəndiyi təcrübə proqramına seçim üçün mübarizəsini müsahibə mərhələsində yarımçıq qoysa da, proqramın iştirakçısı olmaq istəyindən əl çəkməyib: "Həmin vaxt yumşaq bacarıqlarımı inkişaf etdirirdim. Bu müsabiqə ixtisasımla bağlı bilgilərimin də az olduğunu üzə çıxartdı. Təcrübəyə ehtiyacımın olduğunu elə bu müsabiqənin seçim mərhələsindəcə anladım. Mühasibatlıq üzrə başqa yerlərdə təcrübə keçdim və III "Maarifçi"yə seçildim.

Proqramda təcrübəsinin uğurla davam etdiyini düşünən Amin Quliyevin sözlərinə görə, ona verilən tapşırıqları yerinə yetirir: "Sektorda mənə təcrübəçi kimi yanaşmırlar. Mənə qurumun əməkdaşı kimi yanaşıldığını görəndə işə həvəsim daha da artır".

Onu həvəsləndirən, işinə bağlayan amillərdən biri də nazirlikdə vəzifə tutan, karyerada yüksəlişə nail olan şəxslərlə görüşlərdir: "Nazir müavini Firudin Qurbanovla görüş mənim üçün maraqlı olan görüşlərdən biridir. Firudin müəllimin zəngin təcrübəsi var və onun öz sevdiyi işlə məşğul olaraq uğur qazandığını eşitmək bu sahədə yüksələcəyimə inamımı artırdı".

### "Şəxsi inkişaf imkanları verən proqramları araşdırarkən "Maarifçi" diqqətimi çəkdi"

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyində təcrübə keçən Tural Adıgözəlov da magistrdir. UNEC-də "Maliyyə" ixtisası üzrə təhsilini davam etdirən Tural "Vergi və vergiqoyma" sahəsində ixtisaslaşır: "Bakavr təhsilimi tamamladıqdan sonra təcrübə keçəcəyim yerlərin axtarışında idim. Özümü təhsil sahəsində daha çox görürdüm və şəxsi inkişaf imkanları verən proqramları araşdırarkən "Maarifçi" tələbə-məzun təcrübə proqramı diqqətimi çəkdi. Tələbə yoldaşlarım arasında bu proqram haqqında məlumatlı olanlar çox idi və onların da tövsiyəsi ilə proqrama müraciət etdim. Müraciətim müsbət dəyərləndirildi və Maliyyə və təsərrüfat sektorunda təcrübəyə başadım".

Tural Adıgözəlovun fikrincə: "Bakalavr təhsilimi fərqlənmə ilə bitirmişəm. Ən önəmlisi, bir sıra xarici universitetlərin magistraturasına qəbul olunmağıma baxmayaraq, magistratura təhsilimi Azərbaycanda davam etdirməyə qərar vermişəm. Firudin müəllim çıxışında gənclərdə ən çox axtarılan keyfiyyətlərdən birinin vətənpərvərlik olduğunu dedi. Ölkəmdə inkişaf etmək üçün bütün imkanlar var və mən bunu bütün gənclərə göstərmək istəyirəm".

### "Maarifçi"də qazanacağı təcrübə ilə peşəkar olacağına inanır

"Dövlət və ictimai münasibətlər" ixtisası üzrə təhsil alan Fatimə Hacıyeva Bakı Dövlət Universitetinin builki məzunudur. Elm və Təhsil Nazirliyində Protokol şöbəsində təcrübə keçir. Deyir ki, dövlət qulluqçusu olmaq istəyir.

Nazirlikdə görüşlərdə iştirak edir, hədəflərinə yavaş-yavaş nail olur: "Universitetə 600-dən yuxarı bal toplayaraq qəbul olunmuşam. Ali təhsilim də fəaliyyətimi dövlət qulluğu sahəsində qurmağım üçün lazım olan bilik və bacarıqları qazandırıb. Universitetdə bunun üçün əlimdən gələni etmişəm və ali məktəbi yüksək nəticə ilə bitirmişəm. Buna görə "Maarifçi"lərdən biri ola bildim. Ölkənin inkişafına öz fəaliyyətim ilə töhfə verəcəyimə inanıram. Bu inamım mənə indi "Maarifçi" olmaqda, sonra peşəkar olmaqda və layiqli vəzifələr tutmaqda kömək olacağına əminəm".

### "Bu fikir daim əsaslanacağım qiymətli tövsiyədir"

Mədinə Quliyeva da Bakı Dövlət Universitetinin (BDU) builki məzunlarındandır. "Dövlət və ictimai münasibətlər" ixtisası üzrə bakalavriat səviyyəsini bitirib. Elm və Təhsil Nazirliyində İnsan resursları sektorunda təcrübəçidir: "İxtisaslaşmaq istədiyim sahəni hələ müəyyən etmədiyimdəm magistratura təhsili almaq istəmədim. Əvvəlcə işləmək, təcrübə toplamaq, harada boşluqlarımın olduğunu müəyyənləşdirmək istəyirəm. Ötən bir ayda karyerada yol qət etmiş insanlarla işləyə-işləyə öyrəndim ki, haqlıyam. Nazir müavini Firudin Qurbanovla görüşdə o da dedi ki, özümüzü xoşbəxt hiss edəcəyimiz işi görməliyik. Bu fikir daim əsaslanacağım qiymətli tövsiyədir".

Mədinə deyir ki, tələbə olduğu dövrdə daha çox insan resursları üzrə – işə qəbul və təlim inkişafı üzrə təcrübələrdə olub. İqtisadi sahədə – banklarda, SOCAR-da, "Azəriqaz" İB-də də təcrübə keçib: "Elm və Təhsil Nazirliyində keçdiyim təcrübə mənim üçün çox qiymətlidir. Nazirlikdə insan resursları sahəsində təcrübədəyəm və bu sahədə biliklərimi möhkəmlədə, peşəkarlaşa bilsəm, magistraturada bu ixtisas sahəsi üzrə təhsilimi davam etdirəcəyəm".

**Ruhiyyə DAŞSALAHLI**

# Qarabağ Universitetinin strateji hədəfləri

Təxminən bir il əvvəl ilk tədris ilinə hazırlaşan Qarabağ Universitetinin rektoru Şahin Bayramov yeni yaradılmış ali təhsil ocağının qarşıya qoyduğu hədəflər haqqında ilk müsahibəsini “Xalq qəzeti”nə vermişdi. Həmin vaxt növbəti söhbətimizi Xankəndidə etmək arzusu ilə sağollaşmışdıq. Artıq qısa müddətdə gözəl Qarabağımızın dirçəlişinin simvollarından birinə çevrilmiş universitet 2024-2025-ci tədris ilinə yekun vurub. Bəs ötən il ali təhsil ocağı üçün hansı uğurlarla yadda qaldı? Qarşıda hansı inkişaf planları var? Universitet tələblərini hansı yeniliklərlə sevindirəcək? Arzuladığımız kimi, bu dəfə Şahin müəllimlə Xankəndi şəhərində görüşüb bu və digər suallarımıza cavab almaq üçün həmsöhbət olduq.



**Şahin müəllim, gözəl Qarabağımızda xoş görüşdük. Hazırda bölgədə davam edən bərpa və quruculuq işləri kontekstində işğaldan azad olunmuş ərazilərimizdə yaradılmış ilk və hələ ki, yeganə ali təhsil müəssisəsi olan Qarabağ Universitetinin birillik fəaliyyətini necə dəyərləndirirsiniz?**

- Xoş görüşdük. İlk növbədə qeyd edim ki, Qarabağ Universitetinin yaradılması hadisəsi yalnız yeni bir ali təhsil müəssisəsinin qurulması deyil, eyni zamanda doğma Qarabağımızın dirçəlişini hədəfləyən uğurlu dövlət siyasətinin parlaq təzahürlərindən biridir. Vurğuladığınız kimi, hazırda dövlətimizin müəyyən etdiyi strateji inkişaf prioritetləri çərçivəsində işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Bu proses yalnız fiziki infrastrukturun qurulması ilə məhdudlaşmır, həm də regionun sosial-iqtisadi reinteqrasiyası, əhalinin dayanıqlı məskunlaşması və insan kapitalının inkişafı ilə sıx bağlıdır. Bu baxımdan, Qarabağ Universitetinin yaradılması, faktiki olaraq, Qarabağın dayanıqlı inkişaf konsepsiyasında ali təhsilin və insan kapitalının rolunu mərkəzə çəkən və gələcəyə yönəlmiş bir addımdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Qarabağ Universitetinin yaradılması dərin strateji mahiyyət daşıyır. Bu qərar bölgənin iqtisadi potensialı, əmək bazarının tələbləri və burada həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq prosesləri nəzərə alınmaqla verilib. Cənab Prezidentin universitetimizin açılışında qeyd etdiyi kimi, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir.

Universitetimiz “Böyük Qayıdış” proqramının tərkib hissəsi kimi, bölgənin sosial-iqtisadi canlanmasında mühüm yer tutur. Bu nöqteyi-nəzərdən, ölkənin və regionun ehtiyaclarına uyğun yüksəkixtisaslı mütəxəssislər, elmi və pedaqoji kadrlar hazırlamaqla, nəticəyönümlü tədqiqatlar və innovativ həllər təqdim etməklə regionun dirçəlişində pay sahibi olmağı hədəfləyən Qarabağ Universitetinin üzərinə önəmli vəzifələr düşür. Çünki bu gün doğma Qarabağımız yalnız fiziki olaraq deyil, həm də düşüncə, bilik və innovasiyalarla yenidən qurulur.

Bütün bunlar nəzərə alınaraq, Qarabağ Universiteti müasir və inteqrativ yanaşmalarla, interdisiplinar proqramlarla dəstəklənən yeni nəsil ali təhsil modeli əsasında inkişaf etdirilir. Bu yanaşma onu deməyə əsas verir ki, Qarabağ Universiteti bölgənin gələcək inkişafını dəstəkləyən ali təhsil müəssisəsidir. İnanırıq ki, universitetimizin uğuru təkcə akademik göstəricilərlə deyil, həm də Qarabağın gələcək inkişafında oynayacağı fəal rol ilə ölçüləcək. Qarabağ Universitetinin bu missiyanı uğurla yerinə yetirəcəyinə və bölgənin dirçəliş tarixində önəmli iz buraxacağına əminik. Fikrimizcə, bu ali təhsil ocağı gələcəkdə “postmünaqişə universitet inkişafı modeli” kimi beynəlxalq miqyasda nüfuz qazanacaq və bölgələrdə ali təhsilin inkişafı üçün yeni bir baxış bucağı təqdim edəcək. Möhtərəm Prezidentimizin vurğuladığı kimi, Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir.

**- Qarabağ Universitetinin ilk tədris ili başa çatdı. Bu münasibətlə sizi və kollektivinizi təbrik edirik. Universitetinizdə tədris prosesi necə təşkil olunub?**

- Təşəkkür edirəm. İlk tədris ilimiz uğurlu və yaddaqalan hadisələrlə zəngin bir dövr kimi dəyərləndirilə bilər. Bu, ilk növbədə, dövlətimizin yüksək diqqət və qayğısı, strateji baxışları, o cümlədən Elm və Təhsil Nazirliyinin birbaşa dəstəyi sayəsində mümkün olub. İlk gündən etibarən atılan hər bir addım sistemli şəkildə planlaşdırılıb və peşəkar komandamız tərəfindən müvəffəqiyyətlə icra olunub.

Ən qürurverici və önəmli hadisələrdən biri 20 sentyabr 2024-cü il tarixində möhtərəm Prezidentimizin iştirakı ilə Qarabağ Universitetinin rəsmi açılışı oldu. Dövlət başçımızın açılış mərasimindəki “Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar” fikri bu tarixi hadisənin rəmzi mahiyyətini göstərdi.

İlk söhbətimizdə də bildirmişdim ki, bu tədris ili üçün əsas hədəflərimiz peşəkar akademik və inzibati heyətin formalaşdırılması, müasir infrastrukturun qurulması, qabaqcıl təhsil proqramlarının hazırlanması və universitetin tanıdılması idi. Biz bu hədəflərə nail olmağı bacardıq: Əksəriyyəti xarici universitetlərdə təhsil almış təcrübəli əməkdaşlardan ibarət heyət qurulub, 6 fakültə və 27 ixtisas üzrə tədris prosesi müasir təhsil yanaşmaları əsasında təşkil edilib. Ümumilikdə universitetmizə ötən il 1104 tələbə qəbul olunub, onlardan 101 nəfəri 600-dən, 385 nəfəri isə 500-dən çox bal toplayıb. Bu isə ilk dəfə keçirilən tələbə qəbulunun keyfiyyətinin göstəricisidir.

Eyni zamanda, SABAH qruplarına keçirilən müsabiqədə uğur qazanan 60 tələbə universitetimizə transfer olunub. Tədris binaları ilə yanaşı, tələbələrin yerləşdirilməsi üçün yataqxanalar, əməkdaşların isə yaşayış binaları istifadəyə verilib. Universitet kitabxanası müasir standartlara uyğun formalaşdırılıb, müxtəlif dillərdə 17 mindən artıq vəsaitlə təchiz olunub.

Tələbələrin nəzəri biliklərini praktiki bacarıqlarla möhkəmləndirmək üçün müvafiq laboratoriyalar istifadəyə verilib. Fizika, kimya, mexatronika, robototexnika, kompüter və qrafik dizayn, proqramlaşdırma sahələri üzrə 6 müasir laboratoriya tədris prosesinə inteqrasiya edilib. Bununla yanaşı, tədris zamanı simulyativ dərslərə geniş yer verilib. Misal olaraq, “Hüquqşünaslıq” ixtisası üzrə təhsil alan tələbələr üçün Xankəndi Şəhər Məhkəməsində təşkil edilmiş məhkəmə simulyasiyasını xüsusi qeyd edə bilərik. Belə dərslər tələbələrə biliklərini yoxlamaq və hüquqi prosesləri real mühitdə təcrübədən keçirmək imkanları qazandırıb.

Tələbələrin öyrənmə prosesini daha məhsuldar, motivasiyalı və effektiv etmək məqsədilə tələbə biliyinin qiymətləndirilməsi və imtahan qaydaları hazırlanaraq tətbiq olunub. Müvafiq qanunvericiliyə uyğun şəkildə hazırlanmış bu qaydalar çərçivəsində cari tədris ilində payız və yaz semestrinin imtahanları uğurla təşkil olunub. İmtahanlar fənlərin spesifikasına uyğun olaraq yazılı, qarışıq, şifahi, baxış və dinləmə formatlarında keçirilib.

Bir sözlə, Qarabağ Universitetində tədrisin keyfiyyətli təşkili istiqamətində qısa müddətdə mühüm nəticələrə nail olunub və ilk tədris ilində qazanılmış uğurlar növbəti tədris ili üçün möhkəm zəmin və əhəmiyyətli təcrübə formalaşdırıb.

**- Fəaliyyətiniz yəqin ki, tək bu istiqamətləri əhatə etməyib...**

- Bəli, yola saldığımız tədris ili universitetimiz üçün təkcə tədrisin təşkili baxımından deyil, həm də elmi, sosial və beynəlxalq fəaliyyətlər sahəsində mühüm uğurlarla yadda qalacaq. Belə ki, rəhbərlik etdiyim ali təhsil ocağı fəaliyyətini yalnız biliklərin ötürülməsi ilə məhdudlaşdırmayaraq, tələbələrdə analitik düşüncə, yaradıcılıq, milli-mənəvi dəyərlərə sadiqlik, innovativ yanaşma, qlobal təfəkkür və kommunikasiya bacarıqlarının inkişafına yönəlmiş müxtəlif tədbirlərlə genişləndirib. Bu istiqamətdə çoxşaxəli yanaşmanın uğurla həyata keçirilməsində əsas dayaqlardan biri tələbə mərkəzli idarəetmə modelinə əsaslanmaqdır. Qarabağ Universitetinin əsas strateji yanaşmalarından sayılan bu model tələbələrin universitet həyatına motivasiyalı şəkildə qoşulmalarına, öz fikirlərini sərbəst ifadə etmələrinə və qərarvermə proseslərində aktiv iştiraklarına şərait yaradır. Birinci kurs tələbələrinin akademik və sosial həyata rahat inteqrasiyasını təmin etmək məqsədilə oriyentasiya günləri, şəhər infoturları və maarifləndirici infosessiyalar təşkil olunub. Bu fəaliyyətlər sayəsində Xankəndidə ilk məskunlaşan tələbələrimizin şəhərə və universitetə adaptasiyası asanlaşıb.

Ümummilli Liderimiz Heydər Əliyevin əbədiyaşar ideyalarına və zəngin irsinə əsaslanan dəyərlər sistemi Qarabağ Universitetinin təhsil fəlsəfəsinin əsasını təşkil edir. Xüsusilə Prezident cənab İlham Əliyevin “Birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır” fikri universitetin pedaqoji və sosialyönümlü fəaliyyətlərinə bələdçilik edir. Bu baxımdan, tələbələrimizin vətənpərvərlik ruhunun inkişaf etdirilməsi, milli-mənəvi irsimizin qorunması və yaşadılması başlıca prioritetlər sırasındadır. Ötən tədris ilində bu istiqamətdə silsilə sosial və vətənpərvərlik yönümlü tədbirlər həyata keçirilib, tarixi günlər və milli bayramlar geniş ictimai iştirakçılıqla qeyd olunub. Bu tədbirlər vasitəsilə gənclərdə tarixə hörmət, Vətənə bağlılıq, mədəni irsə dəyərvermə, sosial məsuliyyət və dayanıqlı inkişaf düşüncəsinin formalaşdırılması hədəflənib.

Ali təhsil ocağında tələbələrin yaradıcılıq potensialının və innovativ təşəbbüslərinin dəstəklənməsi məqsədilə bir sıra layihələr reallaşdırılıb, müxtəlif təlimlər və seminarlar keçirilib. Universitetimizdə fəaliyyət göstərən Beynəlxalq Dil Mərkəzi tərəfindən xarici dil biliklərinin gücləndirilməsi üçün intensiv proqramlar tətbiq olunub. Gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün müxtəlif idman turnirləri, intellektual yarışlar, konsert proqramları və maarifləndirici görüşlər təşkil edilib. Eyni zamanda, tələbə təşkilatları və maraq klublarının yaradılması təşviq olunaraq, onların universitet həyatında daha fəal rol almaları üçün münbit şərait yaradılıb.

Elmi tədqiqat sahəsində də 2024-2025-ci tədris ili ərzində əhəmiyyətli nəticələr əldə olunub. Universitet əməkdaşları tərəfindən SCOPUS elmi bazasında dərc olunan 14 məqalə beynəlxalq akademik ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Bu məqalələr 6 ölkənin 22 nüfuzlu universitetindən olan alimlərlə birgə hazırlanıb və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən 10-na birbaşa elmi töhfə verir. Qısa müddətdə əldə olunan bu nailiyyəti tədqiqat mərkəzli universitetə çevrilməyi hədəfləyən Qarabağ Universitetinin yalnız yerli deyil, həm də beynəlxalq elm məkanına inteqrasiyasını gücləndirən göstəricilərdən hesab etmək olar.

Eyni zamanda, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu ilə əməkdaşlıq çərçivəsində Qarabağ Universitetində “Azıx arxeoloji araşdırma və analizlər laboratoriyası”nın yaradılması xüsusi vurğulanmalıdır. Laboratoriya Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrantı çərçivəsində mikroarxeoloji analizlər üçün müasir cihaz və avadanlıqlarla təchiz edilib. Bu təşəbbüs regionun qədim tarixinin öyrənilməsinə və tələbələrin praktik araşdırma imkanlarının genişləndirilməsinə töhfə verir.

Nəticə etibarilə, 2024-2025-ci tədris ili Qarabağ Universiteti üçün yalnız fəaliyyətə başlama mərhələsi deyil, eyni zamanda möhkəm əsaslara söykənən gələcək inkişafın, akademik yüksəlişin və regionun dirçəlişində lider rola iddialı ali təhsil müəssisəsinin formalaşma dövrü kimi dəyərləndirilə bilər. Bu dövr universitetimizi həm tələbə yönümlü, həm də elmi-innovativ və milli dəyərlərə sadiq bir ali təhsil platforması kimi cəmiyyətə təqdim etdi.

**- İlk tələbələriniz barədə nə deyə bilərsiniz? Onların uğurları və fərqləndirici xüsusiyyətləri sizi qane edirmi?**

- İlk tələbələrimiz Qarabağda ali təhsilin yenidən bərpasının və intellektual dirçəlişin önündə gedən iştirakçılar sırasındadırlar. Bu gənclər Qarabağ Universitetinin çoxşaxəli akademik fəaliyyətinin fəlsəfəsini və gələcəyini formalaşdıran yeni nəslin nümayəndələridir.

Qeyd etdiyim kimi, 2024-2025-ci tədris ilində universitetimizə yüksək balla qəbul olan tələbələrin sayı çoxdur. Ən yüksək nəticə 683,8 balla “Hüquqşünaslıq” ixtisasına qəbul olan və Prezident təqaüdünə layiq görülən tələbəmizə məxsusdur. Üstəlik, respublika fənn olimpiadasının qalibi olan bir abituriyent “Elektrik və elektronika mühəndisliyi” ixtisasına müsabiqədənkənar qəbul olunub.

Bu faktlar təkcə statistik deyil, həm də fərqli bir yanaşmanın göstəricisidir. Bu tələbələr topladıqları yüksək ballarla ölkənin ən nüfuzlu ali təhsil müəssisələrinə rahatlıqla qəbul ola bilərdilər. Amma onlar Qarabağı seçdilər. Bu seçim isə yalnız akademik deyil, mənəvi və vətəndaş mövqeyindən doğan bir qərardır. Çünki bu gənclərin vətənpərvərlik hissi, missiya daşıma məsuliyyəti, sosial şüuru və yenilik axtarışı onların seçimlərini müəyyənləşdirən əsas xüsusiyyətlərdəndir.

Ötən il universitetimizə qəbul olan ilk tələbələrimizin bölgə və cins balansı da uğurla təmin olunub. Tələbələrimiz, demək olar ki, Azərbaycanın bütün regionlarını təmsil edir, bu da Qarabağ Universitetinin inklüzivlik və milli birliyi təşviq edən missiyasına güclü dəstəkdir. Cins bölgüsündə isə 54 faiz oğlan, 46 faiz qız olmaqla tarazlı tələbə profili formalaşıb.

Eyni zamanda, bir il fəaliyyət göstərməyimizə baxmayaraq, ilk tələbələrimizin qısa müddətdə qazandıqları uğurlar onların nə qədər potensiallı və məqsədyönlü olduqlarını sübut edir. Tələbələrimiz respublikamızda və xaricdə təşkil olunmuş çoxsaylı müsabiqə, forum, yarışma, olimpiada, festival və sərgilərdə yüksək nəticələr göstərərək, universitetimizi layiqli şəkildə təmsil ediblər.

Təbii ki, bütün bu uğurların qazanılmasında dövlətimizin güclü dəstəyi və peşəkar heyətimizin böyük zəhməti sayəsində universitetimizdə formalaşmış akademik mühitin rolu danılmazdır. Əsas məqsədimiz, yüksək akademik göstəricilərə və öyrənmə həvəsinə malik olmaları ilə yanaşı, tələbələrimizi güclü vətənpərvərlik və ictimai məsuliyyət hissinə, multidissiplinar düşüncə və yaradıcılıq potensialına, müasir texnologiya və innovasiyalara açıq yanaşmaya, komanda ruhu və liderlik bacarıqlarına, sosial fəallıq, könüllülük, milli dəyərlərə sadiqlik və mədəni duyarlılıq keyfiyyətlərinə sahib vətəndaş və cəmiyyətə dəyər qatan liderlər kimi yetişdirməkdir.

Məhz bu keyfiyyətlər əsasında Qarabağ Universitetinin tələbələri bu gün yalnız fəal və təşəbbüskar gənclər kimi deyil, eyni zamanda sabahın müəllimləri, alimləri, mühəndisləri, hüquqşünasları, iqtisadçıları, həkimləri, diplomatları, sənətkarları və liderləri kimi formalaşırlar.

**- Universitetin birillik fəaliyyəti ərzində beynəlxalq əməkdaşlıq sahəsində hansı addımlar atılıb və bu istiqamətdə əsas gözləntiləriniz nədən ibarətdir?**

- Qarabağ Universiteti ilk tədris ilindən etibarən beynəlxalq əməkdaşlıq sahəsində fəal və məqsədyönlü addımlar ataraq qısa müddətdə özünü qlobal ali təhsil məkanında tanıtmaq istiqamətində müvafiq işlər görüb. Əsas məqsədlərimizdən biri Qarabağımızın adını daşıyan ali təhsil ocağının beynəlxalq səviyyədə yüksək akademik reputasiyasına nail olmaqdır. Eyni zamanda, müasir dövrün tələblərinə və qabaqcıl təcrübələrə əsaslanaraq universitetin potensialının inkişaf etdirilməsi baxımından beynəlxalq əməkdaşlığın gücləndirilməsi strateji əhəmiyyət daşıyır.

İlkin dövrdə universitetimizin beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulması, müvafiq beynəlxalq platformalarda təmsil olunması və qarşılıqlı faydalı bir sıra layihələrdə iştirakını təmin etmək məqsədilə müvafiq səfərlər, görüşlər və tədbirlər keçirilib. Universitet rəhbərliyinin ilk xarici rəsmi səfəri qardaş Türkiyəyə təşkil olunub və bu çərçivədə Ankara, Hacettepe, Qazi və Ankara Hacı Bayram Veli universitetləri ilə mühüm təmaslar qurulub. Bu səfərin davamı olaraq, iki nüfuzlu türkiyəli professorun Qarabağ Universitetində akademik fəaliyyətə başlaması bu əməkdaşlığın yalnız niyyət səviyyəsində qalmadığını, konkret nəticələr doğurduğunu nümayiş etdirir.

Çin Xalq Respublikasının Lanzhou şəhərində keçirilən “Kəmər və Yol” Universitetləri Alyansının 2024-cü il Forumunda və Tokioda keçirilmiş Beynəlxalq Universitetlər Assosiasiyasının konfransında və idarə heyəti iclasında Qarabağ Universitetinin də təmsil olunması Asiya regionunda da etibarlı tərəfdaşlıq münasibətləri qurmaqda maraqlı olduğumuzu göstərib.

Bundan əlavə, Qarabağ Universiteti ilə Dünya Azərbaycanlı Alimlər Birliyi arasında da əməkdaşlıq əlaqələri uğurla qurulub və konkret əməkdaşlıq istiqamətlərini əhatə edən birgə fəaliyyət planı təsdiq edilib. Plana ortaq elmi-tədqiqat layihələrinin icrası, müasir laboratoriyaların yaradılması, onlayn dərs və seminarların təşkili, xaricdə yaşayan azərbaycanlı alimlərin mühazirələrinin təşkili, birgə elmi konfrans, forum və simpoziumların keçirilməsi kimi mühüm istiqamətlər daxil edilib. Bu əməkdaşlıq Qarabağ Universitetinin diasporla, beynəlxalq alimlər cəmiyyəti ilə əlaqələrinin daha da gücləndirilməsinə xidmət edir.

2025-ci ilin əvvəlində Azərbaycan Respublikasının elm və təhsil nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri çərçivəsində İstanbul Texniki, Mərmərə, Koç və Yıldız Texniki universitetləri ilə əməkdaşlıq imkanları ətraflı müzakirə olunub. Nəticə olaraq Yıldız Texniki Universiteti ilə rəsmi Əməkdaşlıq Memorandumu imzalanıb. Bu sənəd tərəflər arasında birgə layihələr, tələbə-müəllim mübadiləsi və birgə elmi tədbirlərin təşkili baxımından əhəmiyyətlidir.

Universitetimizdə beynəlxalq miqyaslı tədbirlərin təşkili də bu prosesin mühüm hissəsidir. “Qarabağda gələcəyin tibb bacısı və həkim təhsili modeli” adlı beynəlxalq konfrans və VI Beynəlxalq Səyahət və Turizm Dinamikası Konfransı universitetin beynəlxalq akademik nüfuzunun yüksəldilməsinə xidmət edib. Bundan əlavə, ADA Universiteti və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən “Yeni dünya nizamına doğru” mövzusunda 7-ci ADA Siyasi Forumunun ilk günü Qarabağ Universitetində baş tutub ki, bu da, ali təhsil ocağımız üçün cari tədris ilinin ən əlamətdar və prestijli hadisələrindən biri olub.

Tələbələrimizin və əməkdaşlarımızın Türkiyə, Misir, Çin, Özbəkistan, Almaniya, ABŞ, İsrail, Portuqaliya, Gürcüstan və digər ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə iştirakı isə Qarabağ Universitetinin adının artıq 4 qitədə tanınması və layiqli şəkildə təmsil olunması istiqamətində önəmli addımlardan sayılır. Bu tədbirlər vasitəsilə universitetin öz inkişaf modelini təqdim etməsi və qlobal akademik platformalara çıxışı onun gələcək beynəlxalq layihələrdə tərəfdaşlıq etmək imkanlarını genişləndirir.

Növbəti illərdə beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi diqqət mərkəzində saxlanılır. İlk növbədə, dost və qardaş ölkələrin universitetləri olmaqla, nüfuzlu xarici ali təhsil müəssisələri ilə müvafiq ixtisaslar üzrə ikili diplom proqramlarının təşkili, birgə laboratoriyaların yaradılması, tələbə və akademik heyətin mübadiləsi, ortaq elmi fəaliyyətlərin və layihələrin həyata keçirilməsi əsas gözləntilər sırasındadır. Qarabağ Universiteti gələcəyə yalnız lokal ehtiyaclarla deyil, həm də qlobal dəyərlərlə baxaraq inkişaf edir. Bu yanaşma universitetimizi həm regional, həm də beynəlxalq səviyyədə elm və təhsil mərkəzinə çevirmək üçün möhkəm zəmin yaradır və qlobal akademik əməkdaşlıq imkanlarını daha da artırır.

**- Artıq ikinci tədris iliniz yaxınlaşır. Hazırlıq işlərinin gedişi və Qarabağ Universitetinin əsas hədəfləri barədə fikirlərinizi bölüşməyinizi istərdik.**

- Universitetimiz qısa müddət ərzində əhəmiyyətli inkişaf mərhələsini uğurla keçərək, artıq ikinci tədris ilinə hazırlaşır. Elm və Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən, növbəti tədris ilinə hazırlıqla bağlı kompleks fəaliyyət planı təsdiq edilib və bu çərçivədə hazırlıq proseslərinə sistemli şəkildə start verilib. Fəaliyyət planında universitetin strukturunun təkmilləşdirilməsi, tələbə qəbulu proqnozları, yeni ixtisasların yaradılması və digər vacib istiqamətlər nəzərə alınıb, müvafiq addımlar artıq praktik icra mərhələsindədir.

Məlumat üçün bildirim ki, yeni tədris ili üçün müəyyənləşdirilmiş əsas hədəflərdən biri tələbə qəbulunun artırılmasıdır. Belə ki, 2025-2026-cı tədris ili üçün Qarabağ Universitetinə 1440 tələbənin qəbul olunması nəzərdə tutulub və bu da əvvəlki tədris ili ilə müqayisədə təqribən 300 nəfərdən çox artım deməkdir. Universitetimizdə Pedaqoji, Humanitar və sosial elmlər, İncəsənət, İqtisadiyyat, Turizm və Mühəndislik fakültələri ilə yanaşı, yeni yaradılmış Tibb və sağlamlıq elmləri fakültəsində də kadr hazırlığı aparılacaq. Eyni zamanda, əlavə olaraq 10 yeni ixtisas - “Biologiya müəllimliyi”, “Kimya müəllimliyi”, “Coğrafiya müəllimliyi”, “Tarix müəllimliyi”, “Bəstəkarlıq”, “Musiqişünaslıq”, “Riyaziyyat”, “Data analitikası”, “Tibb” və “Tibb bacısı (qardaşı) işi” üzrə tələbə qəbulu həyata keçiriləcək. Beləliklə, bu yeniliklərlə birlikdə Qarabağ Universitetində bakalavriat səviyyəsində tədris ediləcək ixtisasların sayı 25-dən 35-ə yüksələcək.

Yeni ixtisasların açılması və fakültələrin genişləndirilməsi ilə paralel şəkildə akademik və inzibati heyətin formalaşdırılması prosesi də aparılır. Müvafiq vəzifələrin tutulması ilə bağlı elanlar müntəzəm olaraq Qarabağ Universitetinin rəsmi saytında və sosial şəbəkə hesablarında təqdim edilir. İşə qəbul zamanı yüksək elmi-pedaqoji səviyyə, beynəlxalq təcrübə və müasir tədris metodlarına bələdlik əsas seçim meyarları kimi götürülür. Universitetin davamlı inkişafı baxımından insan kapitalının keyfiyyəti həlledici faktor olduğundan, bu sahəyə xüsusi həssaslıqla yanaşılır.

İnfrastruktur baxımından da ciddi addımlar atılır. Artan tələbə və əməkdaş kontingentini nəzərə alaraq, yeni tədris korpusları və yataqxanaların tikintisi və əsaslı təmir işləri aparılır.

Bunlardan əlavə, tələbə qəbulu planının uğurla yerinə yetirilməsi məqsədilə abituriyentlərlə aktiv kommunikasiya strategiyası hazırlanıb və icra olunur. Abituriyentlərlə əlaqələrin gücləndirilməsi və universitetin tanıdılması üçün cari ilin may ayından başlayaraq təbliğat fəaliyyətinə geniş yer verilib. Respublikanın əksər bölgələrində abituriyentlər və onların valideynləri ilə keçirilmiş görüşlər, yerli və beynəlxalq təhsil sərgilərində aktiv iştirak bu istiqamətdə aparılan işlərin əsasını təşkil edib. Eyni zamanda, Qarabağ Universitetinin təklif etdiyi imkanlar rəsmi internet saytımız və sosial şəbəkə hesablarımız vasitəsilə geniş auditoriyaya çatdırılıb. Bu təbliğat fəaliyyətinin nəticəsi olaraq universitetə maraq və müraciətlərin artdığı müşahidə olunur.

Yeni mərhələdə xüsusilə diqqət mərkəzində olan əsas məsələlərdən biri də Tibb və sağlamlıq elmləri fakültəsinin strukturlaşması və fəaliyyətə başlamasıdır. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidentinin 7 fevral 2025-ci il tarixli Fərmanına əsasən, Qarabağ Universitetinin tabeliyində “Qarabağ Universitetinin Klinikası” publik hüquqi şəxs yaradılıb. Klinikanın Qarabağ Universitetində tibb ixtisasları üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin etməsi, tibb sahəsində elmi-tədqiqatlar aparması, regionda əhalinin sağlamlığının qorunmasında iştirak etməsi nəzərdə tutulub. Qarabağ Universitetinin Tibb və sağlamlıq elmləri fakültəsində yerli və xarici ekspertlərin birgə hazırladığı, beynəlxalq təcrübələrə uyğun kompetensiyaya əsaslı 6 illik “Tibb” və 4 illik “Tibb bacısı (qardaşı)” proqramlarının tədrisi həyata keçiriləcək. 2025/2026-cı tədris ili üçün universitetimizdə sözügedən ixtisaslar üzrə müvafiq olaraq 70 və 30 tələbə qəbulu planı yeri proqnozlaşdırılıb.

Təbii ki, bu qədər qısa müddət ərzində belə mühüm yeniliklərə nail olunması bir sıra mühüm amillərdən qaynaqlanır. İlk növbədə, dövlətimizin göstərdiyi yüksək diqqət və qayğı, eləcə də Elm və Təhsil Nazirliyinin, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin Xüsusi Nümayəndəliyinin davamlı və koordinasiyalı dəstəyi, həmçinin, beynəlxalq və yerli tərəfdaşlarla qurulan effektiv əməkdaşlıq mühiti bu prosesin mühüm dayaqlarıdır. Bundan başqa, universitetin akademik və inzibati heyətinin fədakar əməyi, tələbə kollektivinin enerjisi və ictimai dəstək universitetimizin sürətlə inkişaf edən elm və təhsil mərkəzinə çevrilməsində aparıcı rol oynayır.

Məhz bu dəstəyə arxalanaraq, ali təhsil ocağımız gələcək üçün iddialı strateji hədəflərə köklənib. Başlıca məqsədimiz Qarabağ Universitetini ölkənin, o cümlədən regionun innovasiya və bilik ekosisteminin aparıcı drayverinə çevirmək, dayanıqlı inkişaf əsaslı, tələbə mərkəzli və tədqiqat yönümlü nümunəvi bir ali təhsil müəssisəsi kimi formalaşdırmaqdır. Atılan hər bir addım və həyata keçirilən hər bir təşəbbüs Qarabağ Universitetinin bölgədə milli dirçəlişə töhfə verən nüfuzlu ali təhsil mərkəzi kimi formalaşmasına yönəlmiş strateji vizyonunun ayrılmaz tərkib hissəsidir.

**- Müsahibə üçün təşəkkür edirik.**

**Söhbəti qələmə aldı:**
**Mahir RƏSULOĞLU,**
*XQ-nin Qarabağ müxbiri*
*Xankəndi*

# Uğur hekayələri

# Qızıl nişanla parlayan məzunlar

Xəbər verildiyi kimi, elm və təhsil naziri Emin Əmrullayevin əmrinə müvafiq olaraq ümumi təhsil müəssisələrinin 2024-2025-ci tədris ili üzrə qızıl və gümüş nişan alan məzunların adları məlum olub. Əmrə əsasən, 220 şagird qızıl, 41 şagird isə gümüş nişanla təltif olunub.

“Azərbaycan müəllimi” qızıl nişana layiq görülən nümunəvi gənclərdən olan Nurxan Useynzadə və Nilufər Zeynallının uğur hekayəsini təqdim edir. Onlar başqa-başqa məktəblərin məzunları olsalar da, fərqli sahələrdə inkişaf etsələr də, yollarının kəsişdiyi bir ortaq nöqtə - qətiyyət, intizam və mükəmməlliyə can atmaq var.



## “Olimpiadalarda iştirak etdikcə fizikanı daha çox sevdim”

Firuz Murtuzov Humanitar fənlər təmayüllü məktəb-liseyin məzunudur. Qızıl nişanla məktəbi bitirmək onu qürurlandırır. O deyir ki, bu uğur 11 illik akademik səylərinin və davamiyyətinin nəticəsidir: “Dörd dəfə fizika, iki dəfə isə informatika fənləri üzrə Respublika fənn olimpiadasında (RFO) iştirak etmişəm. Ümumilikdə olimpiadalarda üç medal əldə etmişəm. Olimpiadalar mənə yeni dostlar və özümü sınaya biləcəyim bir mühit qazandırdı. Problem həlletmə bacarıqlarımı və fizika ilə informatika sahəsində biliklərimi inkişaf etdirməyim gələcəkdə - universitet illərində işimə yarayacaq”.

Firuzun sevdiyi fənn fizikadır. Onun bu sahəyə marağını məktəbin fizika müəllimi formalaşdırıb: “O, dərsləri maraqlı keçməyə çalışır, daim yeni mövzuları bizə həvəslə öyrədirdi. Olimpiadalarda iştirak etdikcə fizikanı daha çox sevdim”.

Firuz Dövlət Proqramı çərçivəsində təhsilini Edinburq Universitetində “Kompüter elmləri və süni intellekt” ixtisası üzrə davam etdirməyi planlaşdırır. Buraxılış imtahanında 281 bal toplayıb. İngilis dili üzrə IELTS imtahanından 9 ballıq sistemlə 8 bal əldə edib.

Ən böyük dəstəkçilərinin valideynləri olduğunu bildirən Firuz boş vaxtlarında dostları ilə görüşür, yutubdakı videoları izləyir, kitab oxuyur və foto çəkməklə məşğul olur: “Yay tətili olduğundan hələlik istirahət edirəm, dostlarımla daha çox vaxt keçirir, Azərbaycanın müxtəlif bölgələrini gəzirəm. Tətilin sonunda isə birinci kurs dərslərinə öncədən hazırlaşmağı planlaşdırıram. Məktəb vaxtı da yayda əsasən hobbilərimə zaman ayırırdım. Həftədə 3-4 dəfə mütaliə edirəm. Altıncı sinfə qədər ədəbiyyat və rəsmlə maraqlanırdım. Hətta dördüncü sinifdə fantastik janrda kiçik bir kitab yazmış və sinif yoldaşlarıma paylamışdım. Sonra bu istiqamətdə məşğul olmadım. Bu yaxınlarda isə skripka çalmağı öyrənməyə başlamışam, amma hələ ki, həvəskar səviyyədəyəm”.



## “Qürurluyam ki, bu nailiyyəti əldə etmişəm”

283 nömrəli tam orta məktəbin məzunu Ayla Qasımova qızıl nişanla təltif olunmasını yalnız akademik uğur kimi deyil, həm də intizam və məsuliyyətin nəticəsi hesab edir: “Çox qürurluyam ki, bu nailiyyəti əldə etmişəm. İndiyə qədər bir çox beynəlxalq və respublika səviyyəli olimpiada və müsabiqələrdə iştirak etmişəm. “Sabahın alimləri” Respublika layihə müsabiqəsinin ikiqat medalçısıyam. 2025-ci il “Purple Comet Math Meet” Beynəlxalq Olimpiadasında komandamız Azərbaycan birincisi oldu. Bundan başqa, “Teens in AI Global Techathon”un Azərbaycan üzrə seçilmiş 10 komandasından birinin lideri olmuşam. “Heydər Əliyev və Azərbaycan tarixi” yazı-referat müsabiqəsinin qalibiyəm. Məqaləm 2025-ci ilin sonunda çap olunacaq kitabda yer alacaq”.

Ayla ən çox riyaziyyatı sevir. Bu marağı uşaqlıqdan olsa da, müəllimi Faiq Əliyev ona bu sahədə daha dərin bilik qazanmasına yardım edib və olimpiadalara yönləndirib:

“Ailəm və müəllimlərim hər zaman mənə dəstək olub. Boş vaxtlarımda ali riyaziyyat və yeni dillər öyrənirəm. Planlı yaşamağa çalışıram, amma sərt qaydalı rejimim yoxdur”.

İstedadlı gənc incəsənətlə də maraqlanır: piano ifa edir, rəqs və rəsmlə məşğul olur. Türkiyə də daxil olmaqla, müxtəlif ölkələrdə milli rəqs yarışmalarında ölkəmizi təmsil edib.

Ayla Qasımova Koç və Sabancı universitetlərindən qəbul təklifi alıb, seçimində Koç Universitetinə üstünlük verir. İngilis dili üzrə IELTS və TOEFL sertifikatları var, səviyyəsi C1-dir. Türk dili üzrə TYS sertifikatı alıb, həmçinin SAT və proqramlaşdırma üzrə sertifikatlara sahibdir.




## “Riyaziyyat və informatika mənim üçün düşüncə tərzidir”

Cəlal Qəhrəmanov Bakı şəhəri 287 nömrəli “Zəkalar” liseyinin məzunudur. Təhsil illərində yüksək nailiyyətlərinə, olimpiadalardakı uğurlarına görə qızıl nişana layiq görülüb: “Bu nişan illərin zəhmətinin nəticəsidir. Riyaziyyat və informatika üzrə yerli və beynəlxalq olimpiadalarda iştirak etmiş, mükafatlar qazanmışam. Bu yarışlar düşünmə qabiliyyətimi, məntiqimi və zaman idarəetmə bacarığımı inkişaf etdirdi, yeni dostlar qazandırdı”.

Cəlalın ən çox sevdiyi fənlər riyaziyyat və informatikadır: “Bu fənlər mənim üçün sadəcə dərs deyil, düşüncə tərzidir. Kiçik yaşlarımdan proqramlaşdırmaya marağım vardı. Bu marağım nəticəsində öz virtual assistentim olan “K.Y.R.A. - Knowledge Yielder and Resourceful Assistant” layihəsini hazırlamışam”.

O, valideynlərinin, xüsusən atasının ona böyük dəstək verdiyini vurğulayır: “Onlar mənə vətənə faydalı insan olmağın yollarını öyrədiblər. Boş vaxtlarımda kitab oxuyur, proqramlaşdırma bacarıqlarımı təkmilləşdirirəm. Yay tətilində əsas hədəfim süni intellekt üzrə biliklərimi artırmaqdır. Günümü planlayıram, bu həm vaxtımı düzgün bölməyə, həm də stresdən uzaq qalmağa kömək edir”.

Cəlal rəsm çəkməyi də sevir, lakin əsas marağı texnologiyadır: “Proqramlaşdırma, veb-sayt hazırlamaq, süni intellekt modelləri ilə işləmək əsas maraq sahələrimdir. Edinburq Universitetinin “Süni intellekt” ixtisasına qəbul olmuşam”.

Cəlal IELTS-dən 7.0, SAT-dan 1360 bal, AP Calculus BC-dən isə maksimum 5/5 bal toplayıb. Süni intellekt və proqramlaşdırma üzrə bir sıra sertifikatlara sahibdir.

Ən son oxuduğu bədii kitab Aleksandr Dumanın “Monte Kristo qrafı” əsəridir: “Mütaliəyə böyük marağım var. Kitablar həm dünyagörüşümü artırır, həm də yazı qabiliyyətimi inkişaf etdirir”.

**Tünzalə QULİYEVA**



## “Qızıl vaxtınızı səmərəli keçirin”

Nurxan Useynzadə təhsil həyatına Bakıdakı 283 nömrəli tam orta məktəbdə başlayıb, son üç ili isə paytaxtdakı 53 nömrəli tam orta məktəbdə davam etdirib. Deyir ki, məktəb illəri, təhsil həyatı çox mükəmməl keçib. Orta məktəb onun üçün sadəcə dərslərlə deyil, həm də fəal sosial həyat və intellektual inkişafla yadda qalıb. O, məktəbin təşkil etdiyi bütün tədbirlərdə, yarışlarda və olimpiadalarda fəal iştirak edib.

Nurxan artıq 8 yaşından başlayaraq məktəbini şahmat yarışlarında təmsil edib və bu marağını davamlı olaraq qoruyub. Şahmat onun düşünmə qabiliyyətini gücləndirib və dəqiq elmlərə, xüsusilə riyaziyyata olan marağını daha da artırıb. Bu sahəyə bağlılığı, zamanla onun ixtisas seçimini də müəyyənləşdirib. İstedadlı gəncimiz ali təhsilini xaricdə “Kompüter mühəndisliyi” ixtisası üzrə almaq istəyir.

Uğurlarının arxasında dayanan əsas qüvvələrdən biri isə ailəsi olub. Nurxan deyir: “Anamın mənim həyatımda rolu ölçüyəgəlməzdir. Bacımın daim yanımda olması, müxtəlif fənlər üzrə suallarıma cavab tapmaqda kömək etməsi, müəllimlərimin individual yanaşmaları, ailəmin dəstəyi mənim uğurumun təməlidir”.

Məzunu olduğu ümumtəhsil müəssisəsinin direktoru Tünzalə Zeynalovanın ona olan diqqət və qayğısı, sinif rəhbəri Aygün Nuriyevanın və müəllimi Ülviyyə Məmmədovanın verdiyi mükəmməl bilik və bir də özünün zəhməti onu seçilmişlərdən edib. Müəllimləri ona yalnız dərs keçməyiblər, həm də motivasiya veriblər, inandırıblar ki, istək və zəhmətlə hər şey mümkündür.

Hazırda xaricdə təhsil üzrə Dövlət Təqaüd Proqramına müraciət edən Nurxan, özünü 5 ildən sonra kibertəhlükəsizlik sahəsində peşəkar mütəxəssis kimi görür. Gənc yaşıdlarına isə belə bir çağırış edir: “Qızıl vaxtınızı səmərəli keçirin və hər günün sonunda özünüzdən soruşun ki, bu gün nə öyrəndim?”.



## “Nailiyyətlərimdə müəllimlərimin əməyi əvəzolunmazdır”

Məktəbi qızıl medalla bitirən digər gəncimiz Nilufər Zeynallıdır. O, Bakıdakı 83 nömrəli məktəb-liseyin məzunudur. Nilufərin təhsil uğurları təkcə məktəb daxilində olmayıb. İstedadlı gəncimiz dəfələrlə məktəbdaxili və məktəblərarası intellektual yarışlarda iştirak edib. Breyn-Rinq televiziya yarışında məktəbin komanda heyətində o da olub.

VIII sinifdə məktəblilərin Respublika fənn olimpiadalarında coğrafiya üzrə bürünc medal qazanan Nilufər bu uğurunu IX sinifdə qızıl medalla, X sinifdə isə yenidən bürünc medalla davam etdirib. XI sinfin buraxılış imtahanlarında 291.1 bal toplayaraq məktəb birincisi adına layiq görülüb. Nilufər blok imtahanında 386.8 bal toplayaraq II ixtisas qrupu üzrə respublika birincisidir.

“Bu, mənim üçün həm gözlənilməz, həm də ən sevincli an idi”, - deyə Nilufər sevincini bizimlə paylaşır: “Əldə etdiyim nailiyyətlərimdə mənə təhsil verən müəllimlərimin əməyi əvəzolunmazdır. Məktəbi qızıl medalla bitirməyimin sevincini yaşayıram. Mənə etimad göstərən, dəstəkləyən, inanan məktəbimizin direktoru Almaz Bayramova başda olmaqla bütün müəllimlərimə təşəkkür edirəm. Eləcə də, daim mənə dəstək olan ailəmə minnətdaram”.

Nilufər ali təhsilini maliyyə sahəsi üzrə almaq istəyir və gələcəkdə dövlətimizin iqtisadi inkişafında fəal rol oynamağı qarşısına məqsəd qoyub.

Əldə etdiyi uğurlarının sirrini paylaşan gəncimiz şagirdlərə 3 amili - məsuliyyətlə çalışmağı, özünəinam hissini formalaşdırmağı və intizamlı olmağı diqqətdə saxlamağı tövsiyə edir. Deyir ki, yalnız zəhmət çəkməklə yüksək nəticələr qazanmaq mümkündür. Yüksək təhsil almağı gələcək üçün ən böyük yatırım hesab edən Nilufər uğur qazanmağın yolunun zəhmətdən keçdiyini bildirir.

## Böyük uğurların arxasında təkcə istedad yox...

Bəli, həmsöhbətlərimizin uğur hekayələri göstərir ki, böyük uğurların arxasında təkcə istedad yox, həm də əzm, intizam və inam dayanır.

Bu iki gənc qızıl medalların parıltısına öz ruhlarının gücünü, düşüncələrinin dərinliyini və arzularının genişliyini əlavə ediblər. Onların uğurları, sadəcə şəxsi nailiyyət deyil. Bu həm də Azərbaycan təhsilinin gücü, müəllim əməyinin nəticəsi, ailənin dəstəyidir.

**Samirə KƏRİMOVA**

## HTP tələbələri



Müasir dövrdə insan kapitalının inkişaf etdirilməsi ölkəmizdə ali təhsil sistemi qarşısında mühüm vəzifələr qoyur. Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, güclü kadr potensialının formalaşdırılması baxımından Azərbaycan hökuməti ilə bir sıra xarici ölkələr arasında bağlanmış müqavilələr əsasında həyata keçirilən Hökumətlərarası Təqaüd Proqramları (HTP) mühüm əhəmiyyət kəsb edir. Proqram gənclərimizə dünyanın nüfuzlu ali təhsil müəssisələrində yüksək səviyyəli mütəxəssislər kimi formalaşmasına öz töhfələrini verir.

Belə gənclərdən biri də bu yaxınlarda HTP çərçivəsində Çin Xalq Respublikasının Çin Neft Universitetində magistratura təhsilini başa vuran Ziyəddin Ömərovdur.

"Azərbaycan müəllimi"nə müsahibəsində Z.Ömərov proqramın əhəmiyyəti, Çində təhsil imkanları, hədəfləri barədə danışır. Əvvəlcə müsahibimizi oxuculara təqdim edirik.

# "Ölkəmin inkişafına töhfə vermək əsas hədəfimdir"

Ziyəddin ÖMƏROV

## "Xaricdə təhsil mənə həm akademik, həm də şəxsi inkişaf baxımından bir çox bacarıqlar qazandırdı"

- *Sizi oxuculara necə təqdim edək?*

- Mən - Ziyəddin Ömərov Xaçmaz rayonunun Həbibkənd kəndində hərbçi ailəsində dünyaya gəlmişəm. Orta təhsilimi kənd məktəbində başa vurmuşam. Məktəb illərində riyaziyyat olimpiadalarında iştirak edərək məktəbimizi təmsil etmişəm. Kiçik yaşlarımdan texniki fənlərə böyük marağım olub və özümü gələcəkdə dinamik, texnoloji bir mühitdə görürdüm. Bu səbəbdən ölkəmizin iqtisadiyyatının mühüm hissəsi olan neft sektorunda mühəndis olmağı qərara aldım.

2018-ci ildə Xəzər Universitetinin "Neft-qaz mühəndisliyi" (ingiliscə) ixtisasına qəbul olundum və ali məktəbi fərqlənmə ilə bitirdim. Təhsil aldığım müddətdə Xəzər Universitetində SPE (Society of Petroleum Enginers) "Khazar Chapter" tələbə təşkilatının prezidenti kimi fəaliyyət göstərmiş və tələbələrin elmi-texniki inkişafına dəstək olmuşam.

Magistr təhsilimi davam etdirmək üçün bir neçə ölkəni nəzərdən keçirdikdən sonra HTP proqramı vasitəsilə Çində tam təqaüdlə magistratura təhsili almağa qərar verdim. Proqramın qalibi oldum və Çinə yollandım. Xaricdə təhsil mənə həm akademik, həm də şəxsi inkişaf baxımından bir çox bacarıqlar qazandırdı. Çində oxuduğum müddətdə müxtəlif beynəlxalq tədbirlərdə Azərbaycanı uğurla təmsil etdim, texnologiya və enerji sahəsində yeni biliklər qazandım və liderlik bacarıqlarımı inkişaf etdirdim. Gələcəkdə qazandığım bilik və təcrübəni Azərbaycan üçün faydalı sahələrdə tətbiq etmək və ölkəmin inkişafına töhfə vermək əsas hədəfimdir.

**"Texnologiya və mədəniyyətin qovuşduğu ölkədə təhsil almaq mənim üçün ən doğru seçim oldu"**

- *Necə oldu ki, Çində ali təhsil almağa qərar verdiniz?*

- Mən texnologiyanı qabaqcıl mənbədən izləmək və ona vaxtında uyğunlaşmaq üçün Çində təhsil almağı seçdim.

Çində ali təhsil almağa qərar verməyim həm ixtisasımla, həm də şəxsi inkişafımla bağlı idi.

Çin enerji sahəsində də sürətlə inkişaf edən bir ölkədir və bu sahədə qabaqcıl təcrübələrə malikdir. Beləliklə, neft-qaz mühəndisliyi üzrə biliklərimi genişləndirmək, eyni zamanda, yeni texnologiyaları öyrənmək və bu sahədə aparılan tədqiqatların bir parçası olmaq şansı əldə etdim. Onların zəngin və qədim mədəniyyəti də qərarımın əsas meyarlarındandır. Ona görə də texnologiya və mədəniyyətin qovuşduğu ölkədə təhsil almaq mənim üçün ən doğru seçim oldu.

**"Azərbaycanı layiqincə təmsil etməyə çalışdım"**

- *HTP çərçivəsində Çində ali təhsil arzunuzu reallaşdırdınız. HTP-nin əhəmiyyəti və həyatınızda rolu barədə nə deyə bilərsiniz? Bu barədə düşüncələrinizi bölüşməyinizi xahiş edirik.*

- HTP rəqabətli bir proqramdır və bu proqramın qalib tələbəsi olaraq özümü hər zaman özəl hiss edirdim. Çünki bu yolda Elm və Təhsil Nazirliyinin əməkdaşlarının daim dəstəyini hiss edirdim və bu mənə həm motivasiya, həm də dövlətimizin mənə olan inamını doğrultmaq üçün məsuliyyət hissi verirdi. Bu məsuliyyət məni daha çox çalışmaq, öyrənmək və inkişaf etmək üçün həvəsləndirdi. HTP sayəsində uğurlu məzuniyyətlə yanaşı, universitetdə bir neçə nailiyyətlərə imza atdım və Azərbaycanı layiqincə təmsil etməyə çalışdım. Və mən bu proqramı həyatımın dönüm nöqtəsi adlandırıram.

**"Eyni anda həm mühəndislik, həm də proqramlaşdırma üzrə məzun oldum"**

- *Çində təhsil sizə nə verdi, hansı bilik və təcrübələri qazandırdı və tədqiqat mövzunuz, ixtisasınız barədə nə deyə bilərsiniz? Təhsil dövründə hansı uğurlarınız oldu?*

- Çində təhsil almaq mənə həm ixtisasım üzrə dərin biliklər, həm də beynəlxalq səviyyədə tədqiqat aparmaq bacarıqları qazandırdı. Mən "Neft-qaz mühəndisliyi" üzrə magistratura təhsili aldım və tədqiqat "Süni intellekt üsullarından istifadə edərək hidravlik qırılmada qum (proppant) həcminin proqnozlaşdırılması" mövzusunda aparılıb. Sadə dillə desəm, kompüter modelinə öyrədirəm ki, hidravlik qırılma zamanı quyulara nə qədər qum vurulmasının daha səmərəli olacağına özü qərar verə bilsin.

Hidravlik qırılma zamanı bu qum şist və sıx kollektorlarda yaranan xırda çatlaqları açıq saxlamaq üçün vurulur ki, neft və qaz həmin çatlaqlardan quyulara axa bilsin. Bu üsul həm hasilatın səmərəliliyini artırmağa, həm də xərclərin azalmasına kömək edir. Tədqiqat nəticəsində süni intellekt modeli vurulacaq qum həcmini 90%-dən çox dəqiqliklə proqnozlaşdırmağa nail olduq və bu, işin ən uğurlu nəticələrindən biri oldu.

Beləliklə, ixtisasımın "Neft-qaz mühəndisliyi" olmasına baxmayaraq, bu sahədə rəqəmsal texnologiyaların tətbiqi ilə məşğul olmaq mənə proqramlaşdırmanın əsaslarını öyrənmək və praktikada tətbiq etmək imkanı yaratdı. Sanki eyni anda həm mühəndislik, həm də proqramlaşdırma üzrə məzun oldum deyə bilərəm.

Ən son və önəmli nailiyyətlərimdən biri də Çinin və dünyanın ən nəhəng enerji şirkətlərindən biri olan CNPC-nin 30 iyun 2025-ci ildə keçirdiyi "Digital Intelligence Empowering a Low-carbon Future" adlı beynəlxalq tədbirdə Azərbaycanı təmsil edən gənc liderlərdən biri kimi iştirak etmək hüququ qazanmaqdır. Bu tədbir dünyanın və Çinin ən nəhəng neft şirkəti olan CNPC tərəfindən təşkil olunmuşdur və tədbirdə 9 fərqli ölkədən gənc liderlər çıxış, 25 ölkədən media nümayəndələri iştirak etmişdir.

Tədbirin əsas məqsədi aşağıdakılar idi:

- Rəqəmsal və ağıllı texnologiyalar vasitəsilə enerji sektorunda aşağı karbonlu gələcəyi sürətləndirmək;
- İqlim dəyişikliyinə qarşı qlobal səyləri dəstəkləmək;
- Gənc liderlərin rəqəmsal və ağıllı texnologiyalardan istifadə edərək enerji keçidindəki çağırışlara dair unikal baxışlarını paylaşmaq;
- Qlobal uğurlu təcrübələri və qabaqcıl trendləri müzakirə etmək, beynəlxalq perspektivləri iştirakçılara çatdırmaq.

Çıxışım zamanı təhsil dövründə apardığım araşdırmamın əsas mövzusu kimi rəqəmsal texnologiyanın neft sektorunda tətbiqi və dolayısı ilə karbon qazını minimallaşdırmaq üçün vasitə olduğu, Azərbaycanın iqlim dəyişikliyi və enerji keçidi mövzusunda necə həssas olduğunu, bu istiqamətdə atılan addımları və ölkəmizin COP29 tədbirinə ev sahibliyi etməsi ilə bağlı fikirlərimi beynəlxalq mediaya çatdırmaq imkanı qazandım. Bu, mənim üçün həm böyük məsuliyyət, həm də Azərbaycan gəncliyini beynəlxalq platformada təmsil etmək baxımından çox önəmli təcrübə oldu.

**Güclü elmi-tədqiqat mühiti, sənaye ilə universitetlərin sıx əməkdaşlığı**

- *Çin ali təhsilinə bütün dünyada maraq var. Sizcə, Çin universitetlərini fərqli edən nədir?*

- Bütün dünyada Çində ali təhsilə marağın artması təsadüfi deyil. Məncə, Çin universitetlərini fərqli edən əsas məqam elmi-tədqiqat mühitinin güclü olması və real sənaye ilə universitetlərin sıx əməkdaşlığıdır. Məsələn, böyük şirkətlər universitetlərə real problemlər təqdim edir və tələbələr bu problemlərin həllində birbaşa iştirak edirlər.

Artıq sosial şəbəkələrin əlçatan olması sayəsində gənclər Çin texnologiyasının necə inkişaf etdiyini və bir texnologiya brendi olduğunu görürlər, təbii ki, bunun arxasında güclü təhsilin dayandığından xəbərdardırlar.

Bu faktorlar Çində təhsili cazibədar edir və mən öz təcrübəmdə də gördüm ki, burada təhsil almaq yalnız diplom qazanmaq deyil, həm də peşəkar, texnoloji və şəxsi inkişaf üçün geniş imkanlar əldə etməkdir.

Demək olar ki, Çindəki bütün universitetlərin imkanları dünya standartlarının üzərindədir. Orada təhsil almaq sanki futuristik bir mühitdə olmaq kimidir, çünki hər şey rəqəmsallaşdırılıb və tələbələr üçün tam əlçatandır. Bu mühit həm təhsili, həm də tədqiqatı daha məhsuldar və rahat şəkildə həyata keçirməyə şərait yaradır.

**Rəqəmsallaşma və texnologiya təhsilə tam inteqrasiya olunub**

- *Çin ali təhsilində sizin üçün maraqlı olan hansı tendensiyaları qeyd edərdiniz? Çinli gənclər hansı sahələrə və ixtisaslara daha çox meyil göstərirlər? Onların elmi-tədqiqatlarda uğurları nə ilə bağlıdır?*

- Çin ali təhsilində məni maraqlandıran əsas tendensiyalardan biri rəqəmsallaşma və texnologiyanın təhsilə tam inteqrasiya olunmasıdır. Dərslərdə, laboratoriyalarda və tədqiqatlarda süni intellekt və böyük məlumat bazasından istifadə geniş yayılıb.

Bundan başqa, Çində professorlar və tələbələr araşdırma mövzularını əsasən sənayedəki real problemlərin həllinə yönəldirlər. Bu yanaşma həm sənayenin inkişafına töhfə verir, həm də tədqiqatların nəticələrinin praktikada dərhal tətbiq olunmasına imkan yaradır. Nəticədə, Çinin sənayesi və texnologiyası sürətlə irəliləyir, gənclər isə həm nəzəri, həm də praktiki biliklərlə böyüyür və ölkənin inkişafına töhfə verirlər.

**"Çinli alimlərlə əməkdaşlıq edərək ölkəmizdə qabaqcıl həllərin tətbiqinə dəstək olmağı planlaşdırıram"**

- *Qarşıdakı illər üçün nə kimi hədəfləriniz var?*

- Qarşıdakı illər üçün əsas hədəfim elm və texnologiya sahəsində dərin tədqiqatlar apararaq ölkəmin inkişafına töhfə verməkdir. Bu arada HTP proqramı vasitəsilə doktorantura təhsilimi Çində davam etdirmək şansı qazandım və artıq "China University of Geosciences"də PhD təhsilimi davam etdirəcəyəm.

Gələcəkdə təhsilimi başa vuraraq Azərbaycana qayıdıb enerji və texnologiya sahəsində elmi-tədqiqat işlərimi davam etdirməyi və çinli alimlərlə əməkdaşlıq edərək ölkəmizdə qabaqcıl həllərin tətbiqinə dəstək olmağı planlaşdırıram. Eyni zamanda, Azərbaycanlı tələbələrə dəstək olmaq, onların beynəlxalq elm və texnologiya sahəsində inkişaf etməsi üçün körpü rolunu oynamaq əsas hədəflərimdəndir.

**Oruc MUSTAFAYEV**

# İkili diplom proqramları:

## Azərbaycan ali təhsilinin beynəlmiləlləşmə yol xəritəsi

Müasir dövrdə ali təhsilin beynəlmiləlləşməsi ölkələrin qlobal rəqabətliliyinin başlıca göstəricilərindən birinə çevrilib. Bu istiqamətdə Azərbaycanda da mühüm addımlar atılır. Ölkəmizdə ali təhsil sisteminin beynəlxalq nüfuzunun gücləndirilməsi üçün həyata keçirilən tədbirlər arasında ikili diplom proqramlarının genişləndirilməsi xüsusi önəm daşıyır. Bu proqramlar Azərbaycanın aparıcı universitetləri ilə dünyanın tanınmış ali təhsil müəssisələri arasında strateji tərəfdaşlıqların qurulmasına, birgə tədqiqatlara, tədris proqramlarının beynəlxalq akkreditasiyasına və müəllim-tələbə mobilliyinin artmasına xidmət edir.

**Prezident İlham Əliyevin sərəncamı beynəlxalq diplomlu mütəxəssislərin yetişdirilməsinə yeni imkanlar açır**

Ölkəmizdə tətbiq olunan beynəlxalq ikili diplom proqramlarının əsas məqsədi müasir elmi nailiyyətlər və innovativ təlim metodlarından istifadə edərək yeni nəsil peşəkarlar yetişdirmək, Azərbaycan ali təhsilinin məzmun və keyfiyyətini yeniləmək və transmilli təhsil modelini ölkədə uğurla tətbiq etməkdir. Bu proqramların inkişaf etmiş təhsil sistemlərinə malik ölkələrin nüfuzlu universitetləri ilə genişləndirilməsi ölkəmizin istedadlı və yüksək potensiallı gənclərinin beynəlxalq təcrübə qazanmasına, ali təhsil müəssisələri arasında birgə elmi əməkdaşlığın artırılmasına zəmin yaradır.

İkili diplom proqramlarında iştirak edən tələbələr eyni vaxtda iki müxtəlif təhsil proqramını mənimsəyərək hər iki universitetin diplomuna sahib olur. Bu, onlara həm yerli, həm də beynəlxalq əmək bazarına daha sürətli inteqrasiya imkanı yaradır, peşəkar bacarıqlarını və rəqabət üstünlüklərini artırır. Bu baxımdan ikili diplom proqramları yalnız fərdi karyera uğurlarını təmin etməklə kifayətlənmir, eyni zamanda ölkənin elmi və intellektual potensialını gücləndirən strateji alət kimi çıxış edir.

Azərbaycanda ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması istiqamətində mühüm addımlardan biri də 2025-ci il iyulun 22-də cənab Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam oldu. Bu mühüm sənəd ölkənin ali təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, qlobal əmək bazarına inteqrasiya edə bilən yüksəkixtisaslı kadrların hazırlanması və uzunmüddətli dayanıqlı, inklüziv təhsil modelinin formalaşdırılması məqsədi daşıyır.

Hazırda 2019-2023-cü illəri əhatə edən və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş Dövlət Proqramı çərçivəsində 6 ikili diplom proqramı uğurla həyata keçirilir ki, bunlardan 2-si bakalavriat, 4-ü isə magistratura təhsil səviyyəsinə aiddir. ABŞ-nin Corc Vaşinqton Universiteti (CVU) ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Təhsil və insan kapitalının inkişafı" ixtisası üzrə magistratura səviyyəsində beynəlxalq ikili diplom proqramı mövcuddur. Eyni zamanda CVU ilə ADA Universiteti arasında "Kompüter elmləri və verilənlərin təhlili" və "Elektrik və elektroenergetika mühəndisliyi" ixtisasları üzrə magistratura səviyyəsində ikili diplom proqramları həyata keçirilir. Cənubi Koreyanın INHA Universiteti ilə Bakı Mühəndislik Universiteti "İnşaat mühəndisliyi", "Elektrik mühəndisliyi", "Elektronika mühəndisliyi" və "İnformasiya texnologiyaları" ixtisasları üzrə bakalavriat səviyyəsində beynəlxalq ikili diplom proqramlarını təklif edir. Türkiyənin Ege Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universiteti "Aqronomluq", "Aqromühəndislik", "Bitki mühafizəsi" və "İqtisadiyyat" ixtisasları üzrə bakalavriat səviyyəsində ikili diplom proqramlarına malikdir. İsrailin Yerusəlim İbrani Universiteti (HUJI) ilə Bakı Dövlət Universitetinin "Biotexnologiya" ixtisası üzrə magistratura səviyyəsində, həmçinin İngiltərənin Vorvik Universiteti ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Bərpa olunan enerji mənbələri" ixtisası üzrə magistratura səviyyəsində ikili diplom proqramları fəaliyyət göstərir.

Müvafiq sərəncama əsasən, bu proqramların sayının 8-ə çatdırılması və onların 2030-cu ilədək davamlı şəkildə icrası nəzərdə tutulur. Nəticədə, daha çox azərbaycanlı gənc dünyanın qabaqcıl ali təhsil müəssisələrindən beynəlxalq diplom əldə etmək imkanı qazanacaq. Bu isə həm fərdi karyera imkanlarını genişləndirəcək, həm də ölkənin elmi və intellektual potensialının yüksəldilməsini şərtləndirəcək.

Proqramların davamlı və stabil maliyyələşdirilməsi üçün Dövlət Neft Fondundan vəsait ayrılması nəzərdə tutulub. Bu isə ali təhsilə yönəlmiş strateji investisiya olmaqla, həm insan kapitalının inkişafına, həm də bilik iqtisadiyyatının formalaşmasına mühüm töhfə verəcək.

Sərəncama əsasən Nazirlər Kabineti dörd ay müddətində beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisaslar üzrə təhsil proqramlarının və təhsil səviyyələrinin seçimi qaydasını, proqramların maliyyələşdirilməsi mexanizmini və icrasına dair tədbirlər planını təsdiq edib dövlət başçısına məlumat verməli, həmçinin bu sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

Elm və Təhsil Nazirliyi beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisaslar üzrə təhsil proqramlarının və təhsil səviyyələrinin seçimini sərəncamda göstərilən qaydaya uyğun şəkildə həyata keçirməli, hər tədris ili üçün proqramların maliyyələşdirilməsi üçün tələb olunan vəsaiti Dövlət Neft Fondu ilə razılaşdırmaqla müəyyən etməli və sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.

Bütün bu tədbirlərin nəticəsində Azərbaycan ali təhsil sistemi daha çevik, innovativ və dünya əmək bazarının çağırışlarına uyğun fəaliyyət göstərən müasir bir quruma çevriləcək. İkili diplom proqramları yalnız beynəlxalq səviyyədə tanınan mütəxəssislərin hazırlanmasına xidmət etmir, eyni zamanda universitetlər arasında əməkdaşlığın güclənməsinə, elmi-tədqiqat sahəsində ortaq layihələrin genişlənməsinə və ali təhsil müəssisələrimizin beynəlxalq reytinqlərdə mövqeyinin möhkəmlənməsinə əhəmiyyətli töhfə verir. Bu proseslər Azərbaycan təhsil sisteminin qlobal elmi və akademik məkana inteqrasiyasını daha da sürətləndirəcək.

**Vaqif FƏTULLAYEV,**
*Azərbaycan Respublikasının Təhsil İnstitunun doktorantı*

# Məktəblilərimiz Avropa Qızlar İnformatika və Beynəlxalq Fizika olimpiadalarında uğur qazanıblar



4-20 iyul tarixlərində Almaniyanın Bonn şəhərində 5-ci Avropa Qızlar İnformatika Olimpiadası (EGOI 2025) təşkil edilib. 61 ölkədən 227 nəfər məktəbli qız şagirdin iştirak etdiyi olimpiadada məktəblilərimiz uğurla çıxış edərək 2 bürünc medal və 1 həvəsləndirici mükafat qazanıblar.

Belə ki, Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin X sinif şagirdi Rahidil Bayramlı və Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Ayan Kərimova bürünc medala, Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin X sinif şagirdi Aytən İskəndərova isə həvəsləndirici mükafata layiq görülüblər.



18-24 iyul tarixlərində Fransanın paytaxtı Paris şəhərində keçirilmiş Beynəlxalq Fizika Olimpiadasında (IPhO 2025) məktəblilərimiz ölkəmizi uğurla təmsil ediblər.

Nəzəri və praktiki turlardan ibarət olan olimpiadada Azərbaycan məktəbliləri 1 gümüş, 2 bürünc medal və 2 həvəsləndirici mükafat əldə ediblər. Belə ki, Kaspi liseyinin XI sinif şagirdi İbrahim Valehli gümüş medala, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagirdi Selcan Süleymanlı və Bakı şəhəri Texniki humanitar liseyinin X sinif şagirdi Məhəmməd Cəfərli bürünc medala, Sumqayıt şəhəri N.Gəncəvi adına texniki və təbiət elmləri liseyinin X sinif şagirdi Zeynəb Məhəmmədli və Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin X sinif şagirdi Murad Xəlil olimpiadanın həvəsləndirici mükafatına layiq görülüblər.

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003,

**Tiraj** 24430 **Sifariş** 1547

**Məsul növbətçi:** S.Kərimova

# "Peşə təhsili və insan kapitalı" jurnalında media nümayəndələri ilə görüş keçirilib



İyulun 22-də "Peşə təhsili və insan kapitalı" jurnalı redaksiyasında Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi və Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının dəstəyi, jurnalın təşkilatçılığı ilə tədbir keçirilib.

Tədbirdə Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının rəhbərliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyinin kollektivi, "Azərbaycan müəllimi" qəzetinin, Azərbaycan Mətbuat Şurasının, Azərbaycan Jurnalistlər Birliyinin, Təhsil İnstitutunun, ADPU-nun və peşə təhsili müəssisələrinin əməkdaşları, media və mətbuat nümayəndələri, jurnalın kollektivi iştirak ediblər.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor müavini Kənan Mirzəyevin giriş nitqindən sonra "Peşə təhsili və insan kapitalı" jurnalının baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Şahbaz Balakişiyev Azərbaycan Milli Mətbuatının inkişaf yoluna ekskursiya edərək "Əkinçi" qəzeti ilə başlayan milli mətbuatımızın dünəni və bu günü barədə geniş və əhatəli təqdimat edib.

Tədbirdə YAP Nərimanov rayon təşkilatının sədr müavini Anar Abbasov, Azərbaycan Mətbuat Şurasının icraçı katibinin müavini Fəridə Ağazadə, Azərbaycan Jurnalistlər Birliyinin sədr müavini Şahin Babayev, "Azərbaycan müəllimi" qəzetinin baş redaktoru Sarvan İbrahimov, Təhsil TV-nin direktoru Jalə Əliyeva, Təhsil İnstitutunun böyük elmi məsləhətçisi, jurnalın redaksiya heyətinin üzvü Rəsul Əsgərov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, jurnalın redaksiya heyətinin üzvü Müseyib İlyasov və jurnalın redaksiya heyətinin üzvü Yusif Axundov çıxış edərək bu əlamətdar gün münasibətilə jurnalın kollektivini və bütün mətbuat işçilərini təbrik ediblər.

Sonda Milli Mətbuat Günü münasibətilə "Peşə təhsili və insan kapitalı" jurnalının yaradıcı kollektivi Elm və Təhsil Nazirliyinin, YAP Nərimanov rayon təşkilatının, Azərbaycan Mətbuat Şurasının, Azərbaycan Jurnalistlər Birliyinin və Peşə Təhsili üzrə Dövlət Agentliyinin diplom və fəxri fərmanları ilə təltif ediliblər.

# Etibarsız sayılır

**Bakı şəhər** 291 nömrəli Ekologiya liseyini 2024-cü ildə bitirmiş Bəşirzadə Fərhad Rəvan oğluna verilmiş E-651436 nömrəli tam orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Qarayev Hüsü Qara oğluna verilmiş A-116248 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 13 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Süleymanova İlahə Vidadi qızına verilmiş B-113834 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 274 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Məmiyev Vüsal Xalıq oğluna verilmiş B-181456 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Ağköynək kənd tam orta ümumtəhsil məktəbi 2002-ci ildə bitirmiş Hacıyeva Fatma Vidadi qızına verilmiş 597887 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 205 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Qurbanov Nicat Nəsib oğluna verilmiş B-367529 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Uğurbəyli kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Məmmədəliyev Kənan Ağabala oğluna verilmiş E-248956 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2015-ci ildə Hüseynov Vüsal İsməli oğluna verilmiş A-059246 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 175 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Qasımov Anar Vüqaroviçə verilmiş A-307525 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 8 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Şərifov Ələsgər Murad oğluna verilmiş E-670457 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2022-ci ildə Xəlilova Lamiyə Vəli qızına verilmiş C-147432 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2021-ci ildə Ashraf Rahiqa Muhammad qızına verilmiş AT-007909 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Hamarkənd kənd tam orta məktəbi 1988-ci ildə bitirmiş İsayev Elçin Rəşid oğluna verilmiş AK-521342 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Şükürova Səkinə Həmzə qızına verilmiş B-687680 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Aşağı Tala kənd 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Ramazanov Samir Məcid oğluna verilmiş AƏ-0820 nömrəli ümumi orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialı** tərəfindən 2004-cü ildə Qocayeva Jalə Əsgər qızına verilmiş 020780 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Soyuqbulaq qəsəbə tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Əhmədov Zaur Cahangir oğluna verilmiş B-407826 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Nazırlı kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Hacıyeva (Vəliyeva) Təbəssüm Bəhlul qızına verilmiş A-041192 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 165 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Məmmədov Röyal Mehman oğluna verilmiş A-199724 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universitetinin nəzdində Məktəb-Lisey Kompleksini** 2024-cü ildə bitirmiş Şumalzadə Məhəmməd Anar oğluna verilmiş E-671542 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 11 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Fərzəliyev Rövşən Ədilağa oğluna verilmiş A-110687 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** İnstitut qəsəbə tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Ağayev Nicat Üzeyir oğluna verilmiş E-425204 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Qarayeri qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Kazımov Asiman Asif oğluna verilmiş A-468309 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2021-ci ildə Zaxarova Sitarə Rafiq qızına verilmiş C-107237 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 128 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Sadıqlı Həsən Məhəmməd oğluna verilmiş E-551450 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Dəyəqarabulaq kənd tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Mahmudov Əli Abbas oğluna verilmiş E-268670 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Kolleci** tərəfindən 2019-cu ildə Quliyeva Gülnur Pərviz qızına verilmiş AA-022652 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Bozalqanlı kənd tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Abdullayeva Nuranə Yaşar qızına verilmiş B-737759 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2019-cu ildə Sofulu Cəmil Nasim oğluna verilmiş AT-005820 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəki Dövlət Regional Kolleci** (keçmiş Şəki Dövlət Pedaqoji Kolleci) tərəfindən 2015-ci ildə Məmmədova Sonaxanım Mövlud qızına verilmiş AA-064316 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Qoşakənd kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş Süleymanova Nərmin Əlişir qızına verilmiş E-524906 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2000-ci ildə Cəfərov Nemət Tofiq oğluna verilmiş A-047693 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 1998-ci ildə Səmədov Emin Ağadadaş oğluna verilmiş A-023986 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2000-ci ildə Səmədov Emin Ağadadaş oğluna verilmiş MNA-000759 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 276 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Babayev Aqil Yaşar oğluna verilmiş E-674022 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 186 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Allahyarov Səbuhi Sədrəddin oğluna verilmiş A-041755 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2023-cü ildə İslamzadə Kənan Seyran oğluna verilmiş C-184433 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Yüngül Sənaye Texnikumu** tərəfindən 1996-cı ildə Əhmədova Fəridə Firuddin qızına verilmiş AB-II-012727 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 7 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Babazadə Tahirə İqbal qızına verilmiş A-356506 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 210 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Murtazəliyeva Səidə Rafiq qızına verilmiş B-387780 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul şəhər** 6 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Əliyev (Ağayev) Ramil Pirverdi oğluna verilmiş 242736 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul şəhər** 6 nömrəli tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Əhmədov Əhməd Elxan oğluna verilmiş B-337020 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən şəhər** 1 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Səfərli Mətin Mehman oğluna verilmiş E-230895 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Əmənət kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Verdiyeva Aygül Niyazi qızına verilmiş B-396631 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 19 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Cəfərov Əli Rəşad oğluna verilmiş E-393677 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Xarxatan kənd tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Cavadov Kamaləddin Nəzər oğluna verilmiş E-642617 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Kolleci** tərəfindən 2018-ci ildə Davudi Ayşəm Yusif qızına verilmiş AA-117204 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.